

Milli azadlıqdan şirin nemət yoxdur!

# Qarabağda antiterror tədbirlərinin başlanmasına 7 gün qalırdı...



Bax səh. 2

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
12 sentyabr 2024-cü il, cümə axşamı
№ 166 (6752)
Qiyməti 60 qəpik



# Qlobal Şərqlə qlobal Qərb arasında etibarlı körpü

Bax səh. 2

# “Qətiyyətli cavab” əməliyyatı...

## Sentyabr döyüşlərindən 2 il ötür

Bax səh. 3

## Avropa Bankının “yaşıl maliyyə” dəstəyi...

Ölkəmizdə səfərdə olan Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) nümayəndə heyəti “Xəzər-Qara dəniz-Avropa” və “Azərbaycan-Mərkəzi Asiya-Avropa” “yaşıl enerji” dəhlizlərinin yaradılması layihələrini müzakirə edib. Energetika nazirinin müavini Orxan Zeynalovla görüşdə AYİB-in Türkiyə və Qafqaz üzrə icraçı direktoru Elisabetta Falcetti Azərbaycanın “yaşıl enerji” dəhlizlərinin yaradılması istiqamətində atdığı addımları yüksək qiymətləndirib, eyni zamanda, COP29 ilə bağlı təşəbbüsləri, enerji sahəsində planlaşdırılan tədbirlərin bütün dünya ölkələri üçün əhəmiyyətinə toxunub.

Avropa Bankının regional direktoru...

Bax səh. 4

## Sülh prosesi beynəlxalq gündəlikdə...



Bax səh. 3

## “ING Group”un yeni proqnozu...

Niderlandın “ING Group” analitik tədqiqat şirkəti Azərbaycanda orta illik inflyasiya ilə bağlı yenilənmiş proqnozunu dərc edib. Gözləntilərə əsasən, 2024-cü ildə ölkəmizdə orta illik inflyasiyan 2,2 faiz, 2025-ci ildə 4,7 faiz, 2026-cı ildə isə 4,5 faiz səviyyəsində proqnozlaşdırılır. “ING Group”un cari il üzrə qiymət indekslərinə baxışı faktiki olaraq Azərbaycanın rəsmi statistikasına daha çox yaxındır. Belə ki, Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2024-cü ilin iyul ayında istehlak qiymətləri indeksi 2,7 faiz artıb. Bu rəqəmlər digər beynəlxalq iqtisadi institutların proqnozlarına çox yaxındır. Belə ki, Birləşmiş Millətlər Təşkilatının (BMT) proqnozlarına görə, 2024-cü ildə

Bax səh. 4

## “Şimal-Cənub” dəhlizi genişləndirilir

“Şimal-Cənub” Nəqliyyat Dəhlizi ailəsinə üzv ölkələr bu tranzitin genişləndirilməsi istiqamətində təşəbbüsləri artırmaqdadır. Bu istiqamətdə yeniliklərdən biri Astara (İran) - Bakı (Azərbaycan) - Həştərxan (Rusiya) marşrutu ilə konteyner qatarının buraxılması imkanlarının reallaşdırılmasıdır. Rusiyanın Həştərxan vilayətinin Xarici Əlaqələr Nazirliyindən məlumatına görə, hazırda Azərbaycanla Həştərxan vilayəti arasında əsas yük axını dəmir yolu ilə həyata keçirilir. Bu, “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Marşrutunun qərb qoludur. Azərbaycandan Rusiyaya bir çox mallar, həmçinin İran, Türkiyə və Hindistandan tranzit yüklər daşınır. Azərbaycanla birgə...

Bax səh. 5

## “İrəvan dialoqu”nda ...

Cənubi Qafqazda sülhün təmin olunması üçün Ermənistan Azərbaycanın haqlı tələblərini yerinə yetirməlidir. Belə tələblərdən biri də erməni tərəfinin ölkəmizə qarşı ərazi iddialarına son qoyulmasıdır. Çünki bu ölkənin konstitusiyasında dövlətimizə qarşı ərazi iddiaları hələ də qüvvədə qalır. Azərbaycan rəsmi səviyyədə bununla bağlı qarşı tərəfə dəfələrlə xəbərdarlıq edib. Nəzərə almaq lazımdır ki, Ermənistanın Müstəqillik Bəyannaməsinin preambulasında “Ermənistan SSR Ali Sovetinin və Dağlıq Qarabağ Milli Şurasının 1 dekabr 1989-cu il tarixli “Ermənistan SSR-ə yenidən birləşmək haqqında” birgə qondarma qərar yer almaqdadır. Yəni rəsmi olaraq Ermənistan hələ də 4.4 min kv km-lik Azərbaycan torpağına iddia ortaya qoyur. Fakt açıq-aşkar...

Bax səh. 5

## Müqəddəs və toxunulmaz xəzinəmiz...

Hər bir milləti tanıdan və digər xalqlardan fərqləndirən ən önəmli xüsusiyyətlərdən biri onun adət və ənənələri, yüksək mənəvi dəyərlər sisteminə malik olmasıdır. Qədim tarixi olan milli adət-ənənələrimizin formalaşdırdığı dəyərlər sistemi güclü dövlətçilik quruculuğu ilə sıx vəhdət təşkil edir. Bu baxımdan qloballaşan dünyada milli adət və ənənələr, onun əsasında formalaşdırılan yüksək mənəvi dəyərlər sistemi hər bir millətin mənəvi, mədəni simasını göstərir.

Xalqımızın yüksək mənəvi dəyərlərindən xəbər verən, min illər öncəyə gedib çıxan adət və ənənələri millətin keçmişi, bu günü və gələcəyi arasında dayanıqlı, sarsılmaz...

Bax səh. 6

## Gürcüstan xarici qrantlara “yox” deyir

Son vaxtlar getdikcə daha çox dövlət vətəndaş cəmiyyəti təsisatlarına maliyyə dəstəyini öz öhdəsinə götürür. Bununla onlar ilk növbədə milli təhlükəsizliklərinin qeydinə qalmış olurlar. Azərbaycan artıq uzun müddətdir ki, bu təcrübəni tətbiq edir və yaxşı da nəticələr qazanıb. Artıq xarici qrantlara “yox” deyən ölkələr sırasına qonşu Gürcüstan da qoşulur. Bu barədə Gürcüstanın Baş naziri İrakli Kobaxidze keçirdiyi brifinqdə məlumat verib.

Son vaxtlarda imperialist güc mərkəzlərinin milli dövlətlərin daxili işlərinə qarışmaq, onlara təzyiqlər göstərmək, siyasətlərinə yön vermək cəhdləri artıb. Onlar öz dəyərlərini...

Bax səh. 5

## Avropanın müdafiə “qorxusu”



Bax səh. 6

## Fransa şokda...



Bax səh. 7

## ABŞ-da debat gecəsi...



Bax səh. 7

# Qarabağda antiterror tədbirlərinin başlanmasına 7 gün qalırdı...

...Sentyabrın 12-si saat 09:45-dən 10:00-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Dəvəli rayonunun Birəli yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Sədərək yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan bir neçə dəfə atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülüb.

***

...Sentyabrın 12-si saat 11:25 radələrində Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Havuş yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeləri Ermənistan silahlı qüvvələrinin üzbəüz yerləşən bölmələri tərəfindən atıcı silahlardan atəşə tutulub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, ordumuzun bölmələri tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülüb.

***

...Sentyabrın 12-də Rusiya Federasiyası Quru Qoşunlarının komandanı ordu generalı Oleq Salyukov Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı kontingentinin yeni komandanı general-mayor Kirill Kulakovu müdafiə naziri general-polkovnik Zakir Həsənova təqdim edib.

Nazir Z.Həsənov qonaqları salamlayaraq, Azərbaycan ilə Rusiya arasında əməkdaşlığın dostluq münasibətləri və qarşılıqlı etimada əsaslandığını qeyd edib. Qarabağ iqtisadi rayonunda əməliyyat şəraiti barədə danışan general-polkovnik Z.Həsənov son zamanlarda qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən törədilən təxribatların sayının artdığını xüsusi vurğulayıb.

***

...Sentyabrın 12-si saat 20:30 radələrində Azərbaycan Ordusunun bölmələri tərəfindən guya Ermənistan silahlı qüvvələrinin Kilsəkənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərinin atəşə tutulması barədə qarşı tərəfin yaydığı məlumat tamamilə yalandır. Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

"Ermənistan müdafiə nazirliyinin yaydığı bu məlumatı qəti surətdə təkzib edirik", - deyə məlumatda bildirilib.

***

...Sentyabrın 12-də Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə əlaqələndirilmiş şəkildə Rusiya Qızıl Xaç Cəmiyyətinin (RQXC) yük avtomobilinin Ağdam-Xankəndi yolu vasitəsilə Xankəndinə keçidi təmin olunub.



"Azərbaycanın Qarabağ bölgəsində Ermənistanın qondarma rejimi tərəfindən problem və təxribatların törədilməsinə baxmayaraq, RQXC tərəfindən göndərilən yükün Azərbaycanla əlaqələndirilmiş şəkildə məhz Ağdam-Xankəndi yolu ilə keçməsini bu yolun açılması istiqamətində müsbət addım və mühüm irəliləyiş kimi qiymətləndiririk",- deyə Azərbaycan XİN bəyan edib.

# Qlobal Şərqlə qlobal Qərb arasında etibarlı körpü

Öz siayasətini milli maraqlar üzərində quran Azərbaycan çoxvektorlu xarici siyasət kursuna malikdir. Multiregional siyasət qısa müstəqillik tarixində ölkəmizə beynəlxalq səviyyədə böyük nüfuz qazandırıb. Qürurverici haldır ki, bu gün respublikamız Cənubi Qafqaz coğrafiyasının lider dövləti olmaqla yanaşı, həm də beynəlxalq aktora çevrilib. Dünyada Azərbaycanın indiki həssas dönəmdə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına verdiyi sanballı töhfələr, iqlim çağırışları da daxil olmaqla qlobal səviyyədə meydana çıxan problemlərə həssas yanaşma sərgiləməsi, beynəlxalq həmrəyliyin gücləndirilməsinə böyük səy göstərməsi yüksək dəyərləndirilir.

## Ölkəmizin, Prezident İlham Əliyevin dünyada artan nüfuzu

Azərbaycan bu gün dünyada ləyaqətli dövlət kimi tanınır. Bunu şərtləndirən ən mühüm amil isə ölkəmizin davamlı olaraq müstəqillik və suverenlik prinsipindən çıxış etməsidir. İqtisadi müstəqilliyini tam təmin edən respublikamız xarici siyasətində də sırf milli maraqlardan çıxış edir və öz maraqlarını qətiyyətlə qorumağı bacarır. Eyni zamanda, hazırda Azərbaycan beynəlxalq təhlükəsizliyə və əməkdaşlığa sanballı töhfələr verir. Güclü iqtisadi potensial, ədalətli enerji siyasəti, əlverişli coğrafi yerləşmə, Avrasiyada nəqliyyat bağlantılarının funksionallığının artmasında oynadığı mühüm rol ölkəmizin beynəlxalq nüfuzunun artmasını şərtləndirən mühüm amillərdir.

Burada dövlətimizin, şəxsən Prezident İlham Əliyevin siyasi qətiyyətinin önəmini isə ayrıca qeyd etmək lazımdır. Hər zaman, hər yerdə Azərbaycanın milli maraqlarını qətiyyətlə qoruyan, ölkəmizi inamla inkişaf etdirən Prezident İlham Əliyev milli səviyyədə əvəzolunmaz Lider kimi qəbul edilir. Həmçinin Onun liderlik missiyası milli məzmunlu, qlobal əhəmiyyətli fəaliyyətlə assosiasiya olunur. Bu barədə istənilən qədər nümunə gətirmək mümkündür. Prezident İlham Əliyevin pandemiyanın ilk günlərindən sərgilədiyi liderliyi yada salaq. 2019-cu ilin sonlarında Çində başlayan və qısa müddətdə 200-dən çox ölkəyə yayılan xəstəlik bütün dünya üçün ciddi təhdidlər yaratmışdı. Belə çətin dönəmdə Azərbaycan Prezidenti qətiyyətlə bəyan etdi ki, qlobal təhdidlər yaradan pandemiyaya qarşı mübarizənin səmərəliliyini artırmaq üçün beynəlxalq həmrəyliyin gücləndirilməsi nail olmaq lazımdır. Həmin çətin dövrdə Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkəmiz uğurla sədrlik etdiyi Türk Şurasının və Qoşulmama Hərəkatının pandemiyaya qarşı mübarizə mövzusuna həsr olunan Zirvə görüşlərinin keçirilməsinə nail oldu. Bundan başqa, dövlət başçımızın təşəbbüsü ilə 2020-ci ilin dekabr ayında BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində Xüsusi sessiyası keçirildi. Xüsusi sessiyasının keçirilməsi təşəbbüsü dünyanın bütün qitələrindən olan 130-dan çox ölkə tərəfindən dəstəklənmişdi. Prezident İlham Əliyevin siyasi iradəsi əsasında Azərbaycan beynəlxalq miqyasda "peyvənd millətçiliyi"nə qarşı çıxdı. Paralel şəkildə respublikamız Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) və Qoşulmama Hərəkatında (QH) bir neçə transda maliyyə dəstəyi göstərdi.

Prezident İlham Əliyevin bu qəbildən olan liderlik keyfiyyətləri Ona büytün dünyada böyük nüfuz qazandırıb. Bunu dövlətimizin başçısının həm İslam dünyasına, həm də Avropa İttifaqı (Aİ) məkanına daxil olan ölkələri birləşdirən təşkilatların Zirvə görüşlərinə fəxri qonaq qismində dəvətlər alması bir daha təsdiqləyir. Dövlətimizin başçısı Avropa Siyasi Birliyinin Zirvə tədbirlərində müntəzəm qaydada iştirak edir. Son olaraq Prezident İlham Əliyev 2024-cü ilin iyul ayında Oksfordda sayca 4-cü Zirvə görüşünə qatılıb və toplantı çərçivəsində "Enerji və bağlantı" mövzusunda dəyirmi masada iştirak edib.

2022-ci il noyabrın 1-də Əlcəzair Xalq Demokratik Respublikasının paytaxtı Əlcəzair şəhərində Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısı keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev Zirvə toplantısına ev sahibliyi edən Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Abdelmacid Tebbunun dəvəti ilə tədbirin açılış mərasimində Fəxri qonaq statusunda iştirak edib. Sammitdə çıxış edən dövlətimizin başçısı vurğulayıb ki, Ərəb Dövlətləri Liqası ilə Azərbaycan arasındakı münasibətlərin xüsusi xarakteri var.

Artıq Azərbaycan Prezidentinin xüsusi dəvət əsasında Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Zirvə görüşlərində iştirakı da ənənə halını alıb. Dövlətimizin başçısı 2022-ci ilin sentyabr ayında Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə Şanxay Əməkdaşlıq Təşkilatının Səmərqənddə baş tutan sammitində fəxri qonaq qismində iştirak edib. Hazırda isə ŞƏT-ə Qazaxıstan sədrlik edir. Prezident İlham Əliyev cari ilin iyul ayında ŞƏT-in Astanadakı Zirvə görüşündə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə iştirak edib. Qeyd edək ki, "ŞƏT+" formatında keçirilən Sammitə 16 ölkənin dövlət və hökumət başçıları qatılıblar. Şanxay Əməkdaşlıq Təşkilatının regional və qlobal səviyyədə böyük perspektiv vəd etməsini, geniş iqtisadi potensial, siyasi dvidentlər amilini, həmçinin qurumun prinsiplərinin, məqsədlərinin Azərbaycanın gündəliyinin bir çox məsələləri üst-üstə düşməsini nəzərə alan ölkə rəhbərliyi ŞƏT-lə əlaqələrin genişlənməsinə güclü siyasi iradə göstərir. Qeyd edək ki, Azərbaycan qurumda təmsil olunan əksər dövlətlərlə ikitərəfli platformada siyasi dialoqu və bu əsasda iqtisadi məzmunlu əməkdaşlığı uğurla inkişaf etdirir, hətta ayrı-ayrı ölkələrlə strateji tərəfdaşlıq sənədləri imzalayıb. Bu baxımdan Azərbaycanın ŞƏT-də təmsilçiliyi arzuolunandır və bu yolda hər hansı bir maneə yoxdur.



2015-ci ilin 9-10 iyul tarixlərində Rusiyanın Ufa şəhərində keçirilmiş ŞƏT-in Zirvə toplantısı zamanı qəbul edilmiş qərara əsasən Azərbaycana ŞƏT-də dialoq üzrə tərəfdaş statusu verilib.

Prezident İlham Əliyevin respublikamızın üzvü olduğu beynəlxalq təşkilatlarla yanaşı, üzvü olmadığı təşkilatların da sammit, konfrans və görüşlərinə xüsusi dəvət alması, həmin tədbirlərdə fəal iştirakı Azərbaycan Liderinə və ölkəmizə göstərilən böyük ehtiramın göstəricisidir. Bu etimadın təzahürü olaraq beynəlxalq birlik BMT-nin ən böyük tədbirlərindən biri sayılan COP29 iqlim konfransına ev sahibliyi hüququnu da Azərbaycana verib. Tədbir cari ilin noyabrında baş tutacaq.

## Qlobal çağırışlara həssas yanaşma

Bu gün dünyadakı mənzərə hər kəsə bəllidir. Çox kədərli haldır ki, coğrafi baxımdan müxtəlif qütblərdə yerləşən dövlətlər arasında münasibətlər bir sıra hallarda ixtilaflarla müşayiət olunur. Ayrı-ayrı məkanlarda tolerantlıqla, milli-dini-irqi dözümsüzlüklə bağlı münaqişələrin baş verməsi, siyasi-iqtisadi toqquşmalar adi hala çevrilib və bir sıra məkanlarda qanlı müharibələr alovlanıb.

Belə bir vəziyyətdə Azərbaycan barışıq, dialoq məkanı kimi qəbul olunur. Deyə bilərik ki, hazırda Azərbaycan Qlobal Şərqlə Qlobal Qərb arasında etibarlı körpu rolunda çıxış edir. Bu günlərdə Prezident İlham Əliyev dost İtaliyaya səfəri çərçivəsində Beynəlxalq Çernobbio Forumunda iştirak etdi. Həmin Forumda "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" mövzusunda xüsusi sessiyanın keçirilməsi heç də təsadüfi deyildi. Tədbirdə çıxış edən Prezident İlham Əliyev Azərbaycanın beynəlxalq həmrəyliyə və əməkdaşlığa verdiyi töhfələrə diqqət çəkdi. Qeyd etdiyimiz kimi, iki aydan sonra respublikamız dünyada ən böyük iqlim konfransına - COP29-a ev sahibliyi edəcək. Bununla bağlı qərar ötən ilin dekabrında verilib və bizim hazırlıq üçün bir ildən az vaxtımız var idi. Dövlətimizin başçısının qeyd etdiyi kimi, burada ən vacib məqam ondan ibarətdir ki, bu qərar 200-ə yaxın ölkə arasında konsensusa əsaslanırdı.

Belə bir qərarın verilməsi isə Azərbaycana olan ehtiramın təzahürüdür. Hazırda iqlim məsələləri ən aktual çağırşlardan biridir. Artıq dərk olunur ki, heç bir ölkə iqlim fəsadlarından sığortalamnmayıb. Azərbaycan COP29-a ev sahibliyinin məsuliyyətini öz üzərinə götürməklə və ötən dövrdə ciddi hazırlıqlar görməklə qlobal çağırışa özünün həssas münasibətini ortaya qoyur. "Biz qlobal arenada müxtəlif aktorlar arasında körpülərin qurulması üzərində fəal çalışırıq. Hər kəsə məlumdur ki, iqlim mövzusu ölkələri və xalqları ayıran bir mövzudur. Qarşılıqlı iddialar və ittihamlar var - kim planetimizə xələl gətirməkdə daha çox günahkardır, kim daha çox ödəməlidir və sair. Yəni, beynəlxalq arenada qlobal aktor olmasaq belə, zənnimcə qlobal Cənub və qlobal Şimal arasında körpülərin qurulması mümkündür", - deyə Prezident İlham Əliyev Forumdakı çıxışında vurğulayıb.

## Azərbaycan Prezidenti fəxri qonaq qismində dəvətlər alır

Son vaxtlarda dövlətimizin başçısının müxtəlif coğrafiyalarda yerləşən ölkələrə uğurlu səfərləri də respublikamızın qlobal Şərqlə qlobal Qərb arasında körpü olduğunun daha bir təsdiqidir. Prezident İlham Əliyevin cari ilin iyul ayında dost Pakistana uğurlu dövlət səfəri baş tutdu. Bu səfər iki ölkə arasındakı strateji tərəfdaşlıq münasibətlərinin daha da gücləndirilməsi və bütün sahələr üzrə əməkdaşlığın hərtərəfli genişləndirilməsi baxımından tarixi önəm kəsb edir. Xatırladaq ki, hər iki ölkə müxtəlif məsələlərdə bir-birinə dəstək göstərir.

Xalqların, cəmiyyətlərin tarixi bağlılığı, ənənələr dövlətlərarası münasibətlərin formalaşmasında çox mühüm amillərdən biri qismində çıxış edir. Müstəqil Azərbaycanın Mərkizi Asiya regionu ilə getdikcə möhkəmlənən əməkdaşlıq əlaqələri də məhz belə bir əsaslı və təbii zəmin üzərində inkişaf edir. Respublikamızla qeyd olunan coğrafiyada yerləşən ölkələr arasında tarixi mədəni əlaqələr var, xalqlarımızı etiqad eyniliyi, mədəniyyətlərin, ənənələrin, həyat tərzinin oxşarlığı birləşdirir. Əslində, deyə bilərik ki, Azərbaycanla Mərkəzi Asiya regionu dövlətləri vahid geosiyasi, tarixi və mədəni məkan qismində çıxış edirlər ki, bütün bunlar da qarşılıqlı inam mühitini möhkəmləndirir və münasibətlərin inkişafına müsbət təsir göstərir. Prezident İlham Əliyevin iyul ayında Qazaxıstana baş tutan səfərindən bəhs etdik. Avqust ayında isə dövlətimizin başçısı bu regionda daha bir dost ölkədə - Özbəkistanda dövlət səfərində olub. Prezident İlham Əliyev Özbəkistana uğurla baş tutan dövlət səfəri çərçivəsində mətbuata verdiyi Bəyanatında liderlərin təmasları ilə bağlı maraqlı statistika barədə bəhs edib. İntensivləşən görüşləri uğurların rəhni kimi dəyərləndirən dövlətimizin başçısı vurğulayıb: "Artıq qeyd etdiyim kimi, mən qardaş ölkədə tez-tez oluram. Səfərə hazırlaşarkən, onların cədvəlinə və Şavkat Miromonoviçin səfərlərinin cədvəlinə nəzər saldım və gördüm ki, bu, mənim son iki ildə beşinci səfərimdir. Şavkat Miromonoviç isə son il yarımda dörd dəfə Azərbaycanda olub".

Azərbaycan Prezidentinin son dövrləri əhatə edən səfərlərinin axırıncı ünvanı İtaliya olub. İtaliya Avropanın nüfuzlu dövlətlərindən biridir, dünyanın yeddinci iqtisadiyyatına malikdir. İtaliyada dövlətimizin başçısına göstərilən diqqət və ehtiram bir daha təsdiqləyir ki, Azərbaycan Avropa məkanında da böyük nüfuza malikdir. Qeyd edək ki, ölkəmiz Avropa İttifaqına üzv olan 10 dövlətlə strateji tərəfdaşlıq münasibətlərini özündə ehtiva edən sənədlər imzalayıb.

## Beynəlxalq təşkilatlarda uğurlu təmsilçilik

Azərbaycanın uğurlu xarici siyasət kursundan bəhs edərkən ölkəmizin beynəlxalq təşkilatlarda yüksək səviyyədə təmsilçiliyini xüsusi qeyd etmək lazımdır. Respublikamızın BMT-də və digər təsisatlarda yüksək fəallıq nümayiş etdirməsi təqdirlə qarşılanır. Azərbaycan - Qoşulmama Hərəkatı münasibətləri isə xarici siyasət kursumuzda ayrıca bir istiqamət təşkil edir. Respublikamız tərkibində 120 dövləti birləşdirən QH-na 2011-ci ildə tamhüquqlu üzv qəbul olunub. Ölkəmizin QH-da təmsilçiliyi uzun zaman müddətini əhatə etməsə də, öz səmərəliliyi və məhsuldarlığı ilə diqqət çəkir. Qoşulmama Hərəkatı Azərbaycanın ərazi bütövlüyünü davamlı olaraq dəstəkləyib və Vətən müharibəsi dövründə qəbul etdiyi sənədlərlə ölkəmizin yanında olduğunu ifadə edib. Öz növbəsində, respublikamız Qoşulmama Hərəkatının məqsəd və məramlarının təşviq olunmasına davamlı töhfələr verir. İndiyədək ölkəmizdə Hərəkatın ayrı-ayrı tədbirləri yüksək səviyyədə təşkil olunub.

Azərbaycanın Qoşulmama Hərəkatının prinsiplərinə sadiqlik nümayiş etdirməsi, daim onun ideyalarının təşviqinə çalışması, ehtiyac yarandığı təqdirdə ayrı-ayrı üzv dövlətləri dəstəkləməsi, qurumun fəaliyyətinə digər sanballı töhfələr verməsi QH-də ölkəmizə böyük etimad və nüfuz qazandırıb. Bunun nəticəsidir ki, Hərəkata üzv ölkələrin 2016-cı ildə Venesuelada keçirilmiş Zirvə görüşündə quruma 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi barədə yekdil qərar qəbul edilib. Qoşulmama Hərəkatı dövlət və hökumət başçılarının 25-26 oktyabr 2019-cu il tarixlərində Bakıda keçirilmiş 18-ci Zirvə Görüşündə quruma sədrlik Azərbaycana həvalə olunub. Eyni zamanda, Qoşulmama Hərəkatına üzv dövlətlər quruma 3 illik sədrliyi 2022-ci ildə bitməli olan Azərbaycana Hərəkata əlavə bir il də sədrlik etmək barədə müraciət ünvanlayıblar və bu müraciət respublikamız tərəfindən müsbət dəyərləndirilib.

Azərbaycanın QH-na sədrliyi kifayət qədər uğurlu olub. Qurumun beynəlxalq nüfuzu və funksionallığı əhəmiyyətli dərəcədə artıb, həmçinin təşkilat daxilində yeni təsisatlar formalaşıb.

*Mübariz ABDULLAYEV*

# “Qətiyyətli cavab” əməliyyatı...

## Sentyabr döyüşlərindən 2 il ötür

2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi ilə Azərbaycan öz gücünü bütün dünyaya nümayiş etdirdi. Azərbaycanın “dəmir yumruğunun” qarşısında cəmisi 44 gün duruş gətirə bilən Ermənistan həmin il noyabrın 10-da imzaladağı kapitulyasiya sənədi ilə ölkəmizin qələbəsini qəbul etdi. Bununla belə, ötən müddətdə rəsmi İrəvan imzaladığı üçtərəfli Bəyanatda üzərinə götürdüyü öhdəlikləri tam yerinə yetirməkdən yayınırdı. Eləcə də müharibənin başa çatmasından keçən dövr ərzində erməni tərəfi dəfələrlə hərbi təxribatlar edib. Təbii ki, Azərbaycan Ordusu tərəfindən əməliyyatlar keçirilərək bu təxribatların qarşısı qətiyyətlə alınıb.




### Sentyabrın 12-də gecə saatlarında...

Ermənistanın geniş təxribatlarından biri də 2022-ci ilin 12-14 sentyabr tarixlərində baş verib. Xatırladaq ki, həmin il sentyabrın 12-də gecə saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribat törədib. Ermənistan silahlı qüvvələrinin diversiya qrupları sutkanın qaranlıq vaxtında Azərbaycan Ordusunun bölmələrinin mövqeləri arasındakı ərazilərin və təminat yollarının minalanmasını həyata keçirib. Bu əməllərin qarşısının dərhal alınması məqsədilə bölmələrimiz tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində döyüş toqquşması baş verib.

Qarşı tərəfin Basarkeçər, İstisu, Qarakilsə və Gorus yaşayış məntəqələri istiqamətində yerləşən bölmələri tərəfindən Azərbaycan Ordusunun Daşkəsən, Kəlbəcər və Laçın rayonları ərazisindəki bəzi mövqeləri, sığınacaqlar və dayaq məntəqələri müxtəlif çaplı silahlar, o cümlədən minaatanlardan intensiv atəşə tutulub. Ermənistan silahlı qüvvələrinin təxribatının, ölkəmizin ərazisinə və suverenliyinə qarşı hərbi təhlükələrin qarşısının alınması, hərbi qulluqçularımızın, o cümlədən Kəlbəcər və Laçın rayonları ərazisində infrastruktur işlərinə cəlb olunmuş mülki işçilərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə Azərbaycan Ordusu tərəfindən qəti cavab tədbirləri görülüb. Erməni ordusunun atəş nöqtələrinin susdurulmaqla döyüş toqquşmasının miqyasının genişlənməsinin qarşısının alınması məqsədilə zəruri addımlar atılıb.

### Düşmən təxribata çoxdan hazırlaşırdı

Ümumiyyətlə, həmin döyüşlər baş verən ərəfədə Ermənistan silahlı qüvvələrinin dövlət sərhədinin Laçın, Gədəbəy, Daşkəsən və Kəlbəcər rayonları istiqamətində təxribatları, Azərbaycan Ordusunun həmin rayonların ərazisindəki mövqelərinin müxtəlif çaplı silahlardan atəşə tutulması halları intensiv və sistematik xarakter almışdı. Eyni zamanda, Ermənistan tərəfindən Azərbaycan sərhədləri boyunca hücum təyinatlı silahları, ağır artilleriya vasitələrini və şəxsi heyəti cəmləşdirməsi müşahidə olunmaqda idi. Bütün bu faktlar Ermənistan genişmiqyaslı hərbi təxribata hazırlaşdığına dəlalət edirdi.



Ermənistan bu kimi əməlləri ilə, həmçinin Azərbaycanın işğaldan azad edilmiş sərhədyanı rayonlarda həyata keçirdiyi irimiqyaslı mülki infrastruktur layihələrinin icrasını ləngitmək və Azərbaycan sərhədləri yaxınlığında gərginlik mühitini saxlamaq məqsədini güdürdü. Sentyabr döyüşlərinin davam etdiyi vaxt Ermənistan kütləvi informasiya vasitələrində və sosial media seqmentində Azərbaycanın Ermənistanın ərazisinə müdaxilə etməsi barədə yayılan xəbərlər Müdafiə Nazirliyi tərəfindən təkzib olundu. Bildirildi ki, Azərbaycan Ordusu Ermənistanın genişmiqyaslı təxribatına cavab olaraq lokal əks tədbirlər həyata keçirir və atəş nöqtələri neytrallaşdırılır. Eyni zamanda, vurğulandı ki, Ermənistanın davam edən hərbi avantüra və revanşizm siyasəti, Kəlbəcər, Laçın, Daşkəsən və Gədəbəy istiqamətlərində Azərbaycan Ordusunun mövqelərini intensiv atəşə tutması və törətdiyi genişmiqyaslı təxribatlar vəziyyətin gərginləşməsinin başlıca səbəbidir. Buna görə də məsuliyyəti məhz Ermənistanın hərbi-siyasi rəhbərliyi daşıyır.

### Rəsmi Bakı bəyan etdi!

Yaranmış vəziyyətlə əlaqədar Azərbaycanın Xarici İşlər Nazirliyi də bəyanatla çıxış etmişdi. Bəyanatda qeyd olunurdu: “Ermənistanın normallaşma prosesini müxtəlif bəhanələrlə ləngitməsi, beynəlxalq səylərlə aparılan danışıqlarda destruktiv mövqe nümayiş etdirməsi, üçtərəfli bəyanatlar və əldə edilmiş razılıqlar çərçivəsində öhdəliklərə zidd olaraq, erməni silahlı birləşmələrini Azərbaycan ərazisindən çıxarmaması, Ermənistanda istehsal olunan minaların son zamanlarda Laçın ərazisində yerləşdirilməsi də daxil olmaqla ərazilərin minalanmasının davam etdirilməsi, kommunikasiyaların və nəqliyyat marşrutlarının açılması işlərində Ermənistan tərəfindən yeni şərtlərin irəli sürülməsi və prosesi dağıtması, eləcə də sülh gündəliyinə qarşılıq verməməsi Ermənistanın sülh prosesində maraqlı olmadığını və prosesə zərbə vurulması məqsədlərini nümayiş etdirirdi. Ermənistan tərəfinin Azərbaycana qarşı növbəti təcavüzü beynəlxalq hüququn fundamental norma və prinsiplərinin, habelə Azərbaycan, Ermənistan və Rusiya Federasiyası liderləri arasında imzalanmış üçtərəfli bəyanatların müddəalarının və Azərbaycanla Ermənistan arasında əldə edilmiş razılıqların kobud şəkildə pozulmasıdır, Ermənistanın bu addımları aparılan normallaşma və sülh prosesinə tamamilə ziddir. Azərbaycan dövləti işğaldan azad edilmiş bu ərazilərində genişmiqyaslı bərpa və quruculuq işləri aparan bir zaman, Ermənistan təcavüzə yol verməklə bu prosesə hər vəchlə mane olduğunu növbəti dəfə göstərdi”.

### Düşmənin 250 canlı qüvvəsi və xeyli texnikası məhv edildi

2022-ci il sentyabrın 14-də Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində ölkəmizdə akkreditə olunmuş xarici ölkələrin hərbi attaşeləri üçün mövcud vəziyyətlə bağlı keçirilən brifinqdə Ermənistan silahlı qüvvələrinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində törətdiyi genişmiqyaslı təxribatlarla bağlı məlumatlar verilib.

Ümumiyyətlə, 12-14 sentyabr döyüşlərində ordumuz tərəfindən düşmənə ağır zərbələr vuruldu. Bunun nəticəsində Ermənistan hərbi birləşmələri 250 hərbçisini itirdi. Eyni zamanda, düşmənin xeyli sayda hərbi texnikası və atəş nöqtələri məhv edildi.

### Şəhidlərimizə ehtiram...

Bu döyüşlər nəticəsində, “Qətiyyətli cavab” əməliyyatı ilə Ermənistan “Dəmir yumruq”un gücünü bir daha hiss etmiş oldu. Sentyabr döyüşlərində Azərbaycan ordusu da 80 şəhid verdi, amma şəhidlərin qisası düşməndən alındı. Döyüşlərin davam etdiyi zaman - sentyabrın 13-də Prezident İlham Əliyev şəhid olmuş hərbi qulluqçularımızın ailələrinə, yaxınlarına və bütün Azərbaycan xalqına başsağlığı verib. Dövlətimizin başçısı bununla bağlı sosial şəbəkə hesablarında paylaşım edib. Paylaşımda deyilirdi: “Sentyabrın 13-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Kəlbəcər, Laçın, Daşkəsən və Zəngilan rayonları istiqamətində törətdiyi genişmiqyaslı təxribatların qarşısını alan zaman şəhid olmuş hərbi qulluqçularımızın ailələrinə, yaxınlarına və bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm.

Allah şəhidlərimizə rəhmət eləsin!

Şəhidlərimizin qanı yerdə qalmadı!”.

Həmin gün Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva da şəhid olmuş hərbi qulluqçularımızla bağlı instaqram səhifəsində paylaşım etmişdi: “Allah bütün şəhidlərimizə rəhmət eləsin, yaralılara tezliklə şəfa, onların ailələrinə güc və səbir versin”.

Bütövlükdə, sentyabr döyüşləri müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin qətiyyətini və Azərbaycan Ordusunun gücünü növbəti dəfə bütün dünyaya nümayiş etdirdi.

***NARDAR***

# Sülh prosesi beynəlxalq gündəlikdə...

## Münasibətlərin normallaşması üçün imkanlar təqdim edilir

Son 1 ildə mühüm bir məsafə qət etmiş sülh prosesi beynəlxalq gündəlikdə də diqqətlə izlənməkdədir. Ermənistan ilə Azərbaycan arasında imzalanacaq sülh yeni formalaşan qlobal münasibətlər sistemi üçün xüsusilə ticari-iqtisadi və siyasi anlamda mühüm anlam kəsb edir. Cənubi Qafqazda təhlükəsizlik arxitekturasının gücləndirilməsi, siyasi sabitliyin dayanıqlı hal alması regiondankənar coğrafiya üçün də böyük əhəmiyyətə malikdir. Çünki qısa müddətdə Cənubi Qafqazda sülhün sənədləşdirilməsi Şərq-Qərb və Şimal-Cənub tranzit istiqamətlərini daha aktiv vəziyyətə gətirəcək. Bu isə öz növbəsində yeni iqtisadi dividend, ticari imkanlar deməkdir.

### Yeni siyasi reallıqlar açar rolunda...

Hazırki müasir çağırışların prioritet standartı rentabelli və təhlükəsiz yol amilidir - Azərbaycanın son 4 ildə həyata keçirdiyi siyasət böyük ölçüdə yeni iqtisadi düzən üçün töhfə sayıla bilər. Kataklizmlərin çoxaldığı - dini-etnik kökənli, siyasi və ya daha başqa motivlərə əsaslanan təhdidlərin artdığı bir zamanda qlobal ticari münasibətlərin ənənəvi yolları da təhlükə yaşamaqdadır. Bu yolların mühüm əksəriyyətinin bir çox “stansiyaları” üzrə hazırda destabil durum nəzərə çarpır ki, misal olaraq istər Şərq-Qərb, istərsə də Şimal-Cənub istiqamətlərinə diqqət çəkmək olar. Bu isə ümumi iqtisadi durum üçün mənfi tendensiyalar yaradır. Yeni dünya nizamının ən mühüm ünsürü sayılan “iqtisadi təmərküzləşmə” dalana dirənir, dövlətlərin təminat təhlükəsizliyi təhdid altına düşür. Burada təminat dedikdə bir çox məsələləri nəzərdə tutmaq olar - həm enerji, həm qida, həm yüngül sənaye və yüzlərcə sahələr üzrə ticari münasibətlər çətinləşir. Azərbaycanın formalaşdırdığı yeni siyasi-hərbi reallıqlar isə bu çətinliklər üçün açar rolunu oynayır.

### Macarıstanın XİN başçısı: Hər iki tərəflə qarşılıqlı hörmət əsasında danışa bilərik...

Təsadüfi deyil ki, müxtəlif coğrafiyalardan olan dövlətlər Ermənistan isə Azərbaycan arasındakı sülh prosesinə töhfə verməyə, vasitəçisiz danışıqların aparılması üçün öz imkanlarını təqdim edir. Son dövrlərdə bu mənada, Qazaxıstan xüsusilə seçilir - həm may ayında Ermənistan və Azərbaycan XİN başçılarının Almatı görüşü, həm də bir neçə gün öncə Azərbaycan Prezidentinə zəng edən Qazaxıstanın dövlət başçısı Kasım-Jomart Tokayevin vasitəçisiz danışıqlar üçün platforma imkanlarının irəli sürülməsi olduqca mühüm əhəmiyyət daşıyır. Bu onu göstərir ki, ölkəmizin yürütdüyü siyasət dünya birliyi tərəfindən izlənilir və dəstəklənir.

Növbəti mərhələdə Ermənistan - Azərbaycan arasında münasibətlərin normallaşmasında yer almaq üçün öz imkanlarını tədim edən ölkələrdən biri də dost Macarıstan dövlətidir. Sentyabrın 10-da “İrəvan dialoqu” beynəlxalq konfransında Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto bildirib ki, Macarıstan Cənubi Qafqazda, xüsusən də Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılmasında mühüm rol oynaya bilər. “Dünyada baş verənlər həqiqətən də həyəcanverici və narahatedicidir: bütün siyasi hərəkatlar dünyanın yenidən müxtəlif bloklara bölündüyünü göstərir. Macarıstan belə bir dünya nizamına qarşı çıxır və Şərqlə Qərb arasında əməkdaşlıq üçün əlverişli şəraitin yaradılmasının tərəfdarıdır. Ölkəmiz Cənubi Qafqazda, xüsusən də Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması məsələsində belə bir rol oynaya bilər. Çünki biz bu münaqişədə hər iki tərəflə hər iki halda qarşılıqlı hörmət əsasında danışa bilərik”, - deyə nazir bildirib və sülh sazişinin məhz paytaxt Budapeştdə imzalana biləcəyini deyib.

### Əməkdaşlığı hədəfləyən xarici siyasət kursunun yaratdığı aydın mənzərə

Azərbayanın ən yaxın tərəfdaşlarından sayılan Macarıstanın belə bir təkliflə çıxış etməsi ilk növbədə ölkəmizin xarici siyasəti kursunun üstünlüklərini və doğru istiqamətini özündə əks etdirir:

- Azərbaycan dünya dövlətləri, eləcə də Avropa kontingentindən olan ölkələr ilə bütün sahələr üzrə əməkdaşlığın inkişafında maraqlıdır;
- Ölkəmizin başqa dövlətlərlə münasibəti ədalətli və hüquq çərçivəsindədir;
- Azərbaycan özünün çoxşaxəli əməkdaşlığa əsaslanan siyasi kursunu tam və əyani şəkildə ortaya qoya bilib;
- Ölkəmizin bölgədəki sabitləşdirici rolu bütün kontingentlər üzrə təsdiq olunur.

Bu kimi amillər isə gələcək münasibətlərin ən əhəmiyyətli məhək daşı rolunda çıxış edir - Azərbaycanla dost münasibətdə olan Macarıstanın XİN rəhbərinin məhz İrəvanda bu fikirləri səsləndirməsi də sülhə olan inamın, Azərbaycanın ədalətli mövqeyinə olan etimadın növbəti sübutudur.




### İranlı diplomat: Güclü və vahid regionun yaradılmasını dəstəkləyirik

Vurğulandığı kimi, Cənubi Qafqazda yeni situasiya - dayanıqlı və əbədi sülh bütün tərəflər üçün böyük üstünlüklər vəd edir. Xüsusilə, region ölkələri bu yeni reallıqlardan ən yüksək səviyyədə dividend əldə etmək perspektivini proqnozlaşdırmaqdadır. Paralel olaraq Azərbaycanın istəyinin yalnız və yalnız sülh və əməkdaşlıq olması bütün ölkələr tərəfindən qəbul edilir - bu və ya digər şəkildə, hər kəs ölkəmizin dürüst siyasət yürütdüyünü, təhlükəsizliyin inkişafına dəstək verməyə çalışdığını açıq kontekstdə dilə gətirir. Məsələn, adıçəkilən konfransda təmsil olunan İran xarici işlər nazirinin müavini Məhəmməd Həsən Şeyxolislami də İranın hər zaman regionda sülh və təhlükəsizliyin tərəfdarı olduğunu önə çəkib. Onun sözlərinə görə, Cənubi Qafqazda sülh və sabitliyin bərqərar olması kontekstində Tehran Azərbaycan və Ermənistan arasında sülhün əldə edilməsinə yönəlmiş danışıqları alqışlayır. “Biz qonşularımıza mübahisələri mümkün qədər tez həll etməyə kömək etməyə hazırıq. Biz güclü və vahid regionun yaradılmasını dəstəkləyirik”, - iranlı diplomat deyib.

### Ermənistan sülh üçün addım atmalı, Konstitusiyasında dəyişikliklər etməlidir

Əlbəttə ki, dayanıqlı sülhün əldə olunması üçün bütün tərəflər eyni şəkildə səy göstərməlidirlər. Prosesin davamlı hal alması üçün isə ən əsas şərt səmimiyyət nümayiş etdirmək, qeyri-adekvat və yalan iddialardan əl çəkmək, qonşulara qarşı münasibətdə dürüst olmaqdır. Ermənistanın siyasi rəhbərliyi paytaxtında baş tutan konfransda səslənən bu kimi fikirlərdən nümunə çıxarmalıdır - bütün dünya regiona sabitliyin gəlməsini arzulayır. Rəsmi İrəvan özünün əsassız fikir və ideyalarını, iddialarını bir kənara qoyaraq normal münasibətlərin yaranması üçün addımlar atmalıdır. Məsələn, ilk növbədə Ermənistan Konstitusiyasında yer alan və Azərbaycana qarşı haqsız, əsassız torpaq iddialarını özündə əks etdirən müddəaların dəyişdirilməsi, aradan qaldırılması təmin olunmalıdır. Bu amil sülhü həm tezləşdirə, həm də əbədi olmasına töhfə verə bilər.

***P.İSMAYILOV***

# Avropa Bankının "yaşıl maliyyə" dəstəyi...

## Beynəlxalq maliyyə institutları Azərbaycana davamlı "yaşıl sərmayə"lər yatıracaq

Ölkəmizdə səfərdə olan Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) nümayəndə heyəti "Xəzər-Qara dəniz-Avropa" və "Azərbaycan-Mərkəzi Asiya-Avropa" "yaşıl enerji" dəhlizlərinin yaradılması layihələrini müzakirə edib. Energetika nazirinin müavini Orxan Zeynalovla görüşdə AYİB-in Türkiyə və Qafqaz üzrə icraçı direktoru Elisabetta Falcetti Azərbaycanın "yaşıl enerji" dəhlizlərinin yaradılması istiqamətində atdığı addımları yüksək qiymətləndirib, eyni zamanda, COP29 ilə bağlı təşəbbüsləri, enerji sahəsində planlaşdırılan tədbirlərin bütün dünya ölkələri üçün əhəmiyyətinə toxunub.

Avropa Bankının regional direktoru Azərbaycanla energetika sektorunda mövcud əməkdaşlığın vəziyyətinin müsbət səmərə verməsinə diqqət çəkərək bankın bərpa olunan enerji mənbələrinin istehsalı və nəqli, aşağı karbonlu enerjiyə keçid, "yaşıl texnologiyalar" sahəsində layihələrin icrası və gələcək əməkdaşlıqda "yaşıl enerji"yə xüsusi önəm veriləcəyini xatırladıb. Bankın maliyyə dəstəyi ilə həyata keçirilən Qobustan Günəş Elektrik Stansiyası ilə yanaşı, digər energetika müəssisələrinin yaradılmasında da maliyyə tərəfdaşlığının davam etdiriləcəyi istisna edilmir.

Qeyd edək ki, "yaşıl enerji"yə keçidi enerji siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən etmiş Azərbaycan hökuməti bu sahəyə birbaşa yerli sərmayələr yatırmaqla beynəlxalq donorlar, xarici investorlar və maliyyə institutları ilə də sıx əməkdaşlıq edərək onların sərmayələrini də cəlb etməyə çalışır. Onlardan biri Avropa Bankı bərpa olunan enerji və regional "yaşıl enerji" dəhlizinin həyata keçirilməsində maliyyə donorluğuna razılıq verib. AYİB 2027-ci ilədək 8 külək və Günəş elektrik stansiyasının istismara hazırlanmasına kreditlər ayırmaqla bağlı Bakı ilə razılaşıb. Həmçinin "Xəzər-Qara dəniz-Avropa" dəhlizinin yaradılmasında maliyyə təchizatçı olmaq niyyətini ifadə edib.

Qeyd edək ki, Avropa Yenidənqurma və İnkişaf Bankının ötən il açıqladığı "Aşağı karbonlu hidrogen iqtisadiyyatı bazar araşdırması"na dair hesabatında da Azərbaycanın yaşıl hidrogen istehsalının iqtisadi cəhətdən səmərəli ölkə olması olması, eləcə də regional enerji bazarlarına ixracda və regionda yeni yaradılan çoxşaxəli ixrac marşrutlarında strateji mövqeyə və yerə malik olması öz əksini tapıb. Hesabata əsasən, Azərbaycan 2026-cı ilədək ümumi enerji qoyuluşunda bərpaolunan enerji mənbələrinin payının 24 faizə, 2030-cu ilə qədər isə faizə çatdırılmasında maraqlıdır. Həmçinin məşhur Paris anlaşmasına görə, rəsmi Bakı bu müddətdə Azərbaycan atmosferə buraxılan CO2-nin həcminin bir faiz bəndi həcmində azaldılmasını da öhdəlik kimi götürüb. AYİB Azərbaycanı "yaşıl enerji" quruculuğunda qətiyyətli və dönməz iradə əks etdirən tərəfdaş hesab edir. "Yaşıl enerji"yə davamlı sərmaye yatıracağını bəyan edən bank COP-29 çərçivəsində Azərbaycanla iqlim dəyişikliyi ilə bağlı tədbirlərdə də birgə partnyorluğun artırılacağını vurğulayıb.

### Dünya Bankının "yaşıl sərmayələri"...



Digər maliyyə tərəfdaşı olan Dünya Bankı Azərbaycanda Günəş və hidrogen infrastrukturlarının yenidən qurulmasını maliyyələşdirmək niyyətindədir. Bank Azərbaycanda 760 MVt gücündə Bankə və Biləsuvar günəş enerjisi layihələrinin enerji sisteminə qoşulması, Günəş panelləri infrastrukturunun genişləndirilməsi, "yaşıl hidrogen" istehsalı və digər bərpa olunan sahələrə investisiyaların qoyuluşunda açıq olduğunu bəyan edib. Ümumilikdə, Dünya Bankı 2027-ci ilədək ölkəmizdə 8 külək və Günəş elektrik stansiyalarının qurulması və enerji sisteminə inteqrasiyası məqsədilə maliyyə dəstəyini göstərəcək. Həmçinin işğaldan azad olunmuş ərazilərdə bərpa olunan enerji mənbələrinə sərmayələrin yönəldilməsi, "ağıllı şəhər və ağıllı kənd" konsepsiyalarının tətbiqində "yaşıl texnologiyalar"ın və "yaşıl enerji zonası" layihələrinin icrasında da yaxından iştirak etmək marağını ifadə edib.

Dünya Bankı, həmçinin Azərbaycanda "yaşıl iqtisadiyyat" və "yaşıl enerji" sahəsində yeni layihələrin maliyyələşdirilməsini qarşıdakı dövrün əməkdaşlıq proqramlarına daxil edib.

### Maliyyə Korporasiyasından "yaşıl maliyyə" dəstəyi...

Xarici maliyyə institutlarından biri olan Beynəlxalq Maliyyə Korporasiyası da Azərbaycanda bərpa olunan enerji sektoruna xüsusi maraq göstərir, o cümlədən işğaldan azad edilmiş ərazilərdə "yaşıl" şəhərlərin yaradılması və "yaşıl texnologiyaların" tətbiqində öz maliyyə dəstətini verməyə hazır olduğunu bəyan edib. Bir müddət əvvəl BMK ilə Azərbaycan hökuməti arasında dənizdə külək enerjisi resursundan istifadə üzrə əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb və bu sənəd ilk "yaşıl sərmayə" llayihələrindən biri hesab oluna bilər.

Eyni zamanda, bərpaolunan enerji mənbələrinə investisiyaların cəlb edilməsi, "təmiz enerji"yə keçidin təmin edilməsində Azərbaycanın digər beynəlxalq qurumlarla əməkdaşlığının əlaqələndirilməsində də BMK-nın təşəbbüsləri mühüm əhəmiyyət daşıyır. BMK "Xəzər-Qara dəniz-Avropa" dəhlizinin yaradılmasında da maliyyə təchizatçı olmaq niyyətindədir. Korporasiya rəsmiləri "yaşıl enerji"nin Xəzərdən Avropaya və Naxçıvandan Türkiyəyə ixracı və enerji keçidinin şaxələndirilməsində də əsas donorlardan biri olacaq.

### Asiya Bankının donor planları...

Asiya İnkişaf Bankı (AİB) ilə Azərbaycan Hökuməti arasında qarşıdakı illərdə əməkdaşlığın gündəliyində də "yaşıl enerji" proqramı əsas yer tutur. 2024-2026-cı illər ərzində AİB-lə Azərbaycan Respublikası arasında əməkdaşlıq əsasən bərpa olunan enerji ve "yaşıl nəqliyyat" sahələrini əhatə edəcəkdir. Bu istiqamətdə Bank tərəfindən regional nəqliyyat sistemləri vasitəsilə regional əməkdaşlığın gücləndirilməsi, habelə Şimal-Cənub nəqliyyat dəhlizi çərçivəsində dəmir yolu sektorunda nəzərdə tutulan işlərin tamamlanması və Bakı şəhərində mobilliyin artırılmasında ölkəmizə dəstək veriləcəkdir. Əməkdaşlıq çərçivəsində özəl sektorun iştirakçıları ilə birgə 2024-2025-ci illər ərzində yeni bərpa olunan enerji layihələrinin birgə maliyyələşdirilməsi də nəzərdə tutulur. AİB-in, xüsusilə də işğaldan azad olunmuş ərazilərdə hidroelektrik stansiyaların tikilməsinə sərmayə qoyması gündəlikdə durur.

***ELBRUS CƏFƏRLİ***



# Biznes icması və vətəndaşlar üçün...

## Vergi Məcəlləsinin yeni variantı onların təklifləri əsasında hazırlanacaq

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti Vergi Məcəlləsinin yeni strukturunun hazırlanması üçün biznes icması və vətəndaşlardan təkliflərin qəbuluna başlayıb. Biznes cəmiyyətini, sahibkarları vergi qanunvericiliyinin təkmilləşdirilməsi prosesinə öz töhfəsini verməyə dəvət edən qurum bu məqsədlə vergi ödəyicilərinin və biznes ictimaiyyətinin təkliflərin təqdim edilməsi üçün rəsmi internet səhifəsində ayrıca bölmə yaradıb. Qarşıdakı 1 ay ərzində ölkədə biznesin inkişafına təkan verəcək, sahibkarlıq fəaliyyəti zamanı ortaya çıxan çətinliklərin həllinə kömək edəcək, vergi orqanı ilə biznes icması arasında münasibətlərin ən sivil formada tənzimlənməsini təmin edəcək təkliflər qəbul olunacaq.

### Vergi qanunvericliyində təkmilləşdirmələr davamlı xarakter daşıyır...

Vergi qanunvericiliyinin təkmilləşdirilməsi davamlı xarakter daşıyır və ölkəmizin iqtisadi inkişaf strategiyasının tələblərinə, vergi sistemində baş verən mühüm dəyişikliklərə, ələxsus da qabaqcıl ölkələrin vergi sistemlərində tətbiq olunan ən müasir vergi alətlərinin ölkəmizə gətirilməsi, daha çevik vergi siyasətinin aparılmasına uyğun olaraq daim yeniləşir. İqtisadiyyatın inkişafı yeni reallıqları meydana çıxarır, bu qanunauyğunluqların ritminə əsasən, vergi güzəşt və azadolmalarının əhatəsi genişləndirilir, optimallaşma sayəsində vergi dərəcələri aşağı salınır, iqtisadiyyata investisiya qoyuluşu stimullaşdırıllr, kiçik və orta sahibkarlıq üçün əlverişli vergi mühiti yaradılır, habelə vergi xidməti orqanlarının fəaliyyətinin səmərəliliyi də artırılır.

Bununla yanaşı, ölkədə iqtisadi islahatlar dərinləşdikcə vergiqoymanın qanunvericilik və metodoloji bazasının təkmilləşdirilməsi zərurəti yenidən meydana çıxır, qanunvericilikdə mövcud olan bir sıra boşluqların aradan qaldırılması labüdləşir. Məhz bu tələbatlardan doğan zərurətlərə uyğun olaraq son 20 ildə vergi qanunvericliyində bir neçə dəfə təkmilləşdirmələr aparılıb. Vergi qanunvericiliyinin təkmilləşdirilməsinin konseptual əsasları vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi güzəştlərinin minimuma endirilməsi, vergidən yayınma hallarına qarşı səmərəli mübarizənin təşkili, əlverişli investisiya mühitinin yaradılması, bütün vergi ödəyiciləri üçün bərabər iqtisadi şəraitin təmin edilməsi, ölkədə sahibkarlığın inkişafı və azad rəqabətin formalaşmasından ibarət olub. Xüsusilə də Vergi Məcəlləsində aparılan təkmilləşdirmələrin ən başlıca prioritetlərindən biri isə biznesin mənafeyinə xidmət edən səmərəli mexanizmlərin yaradılmasını özündə əks etdirib. Ötən dövrlər ərzində Məcəllənin ən azı 100-dən artıq maddəsi bu və ya digər formada vergi ödəyicilərinin hüquqlarının qorunmasına və onların qanuni maraqlarının təmin olunmasına yönəldilib.

### "Kölgə iqtisadiyyatı"nın azaldılması vergitutma bazasını genişləndirir...

Son illərdə yeni iqtisadi islahatların dərinləşdirilməsi, 2018-ci ildən başlayaraq vergi sistemində köklü dəyişikliklərin baş verməsi vergi siyasətinin daha da optimallaşdırılmasına səbəb olub ki, bu da qanunvercilikdə aparılan dəyişikliklərlə müşayiət olunub. Xüsusilə də, iqtisadiyyatın şəffaflaşdırılması, vergidən yayınma hallarının qarşısının alınması, qeyri-rəsmi iş yerlərinin rəsmiləşdirilməsi, vergi inzibatçılığının təkmilləşdirilməsi və digər mühüm addımlar nəticə etibarilə biznesin məsuliyyətini, könüllü vergi ödəmə mədəniyyətini də yüksəldib. Bu, islahatlar eyni zamanda, ölkədə biznesin iqtisadi fəallığının artmasına və vergi yığımlarının həcminin əhəmiyyətli həcmlərdə yüksəlməsinə səbəb olub.

Ümumilikdə, son illərdə Azərbaycanda sahibkarliğin inkişafi, biznes mühitinin daha da yaxşilaşdirilmasi məqsədilə vergi qanunvericiliyinə edilmiş mühüm dəyişiklikləri 5 əsas istiqamət üzrə təsnifləşdirmək mümkündür:

- sahibkarliğin dəstəklənməsi;
- vergidən yayınmanın və "kölgə iqtisadiyyatı"nin miqyasinin azaldılması;
- vergitutma bazasının genişləndirilməsi;
- vergi inzibatçılığının təkmilləşdirilməsi;
- mövcud və yeni veriləcək vergi güzəştlərinin səmərəliliyinin yüksəldilməsi.

### İslahatlar vergi daxiolmalarının həcminin artmasına səbəb olub...

Azərbaycanın vergi sistemi son 5 ildə mühüm iqtisadi çağırışlara uyğun inkişaf yolunda əsaslı islahatlarla zənginləşərək özünün yeni simasını formalaşdırıb. Vergi sistemi hazırda iqtisadiyyatın mühüm sütunu, büdcə daxilolmalarının hərəkətverici qüvvəsi və biznes mühitinin əlverişliliyini təmin edən əsas iştirakçıya çevrilib. Xüsusilə də, müasir islahatlar ölkə iqtisadiyyatının mühüm çağırışlarından olan qeyri-neft sektorunun inkişafının təmin edilməsinə mühüm təsir edir.

2023-cü ildə həm iqtisadi artımın, həm də şəffaflaşma tədbirlərinin davam etməsi şəraitində dövlət büdcəsinə proqnozdan əlavə 1,1 milyard manat daxilolma təmin edilib. 2014-cü ilin birinci yarısında dövlət büdcəsinin daxilolmalarının 8 milyard 282 milyon manatı və ya 44 faizi vergi daxilolmalarının payına düşüb. Vergi gəlirləri təsdiq edilmiş proqnozdan 1 milyard 53 milyon manat və ya 14,6 faiz çox olub. Qeyri-neft-qaz sektorundan daxilolmalar 5 milyard 874,7 milyon manat təşkil edib ki, bu da 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 675,3 milyon manat və ya 13 faiz çoxdur. 5 ildir ki, qeyri-neft-qaz vergi daxilolmalarının artım tempi qeyri-neft-qaz ÜDM-in nominal artım tempini üstələyir ki, bunun da əsas səbəbi dövriyyələrin şəffaflaşmasıdır.

Həmçinin, vergi sistemində aparılan islahatlar, qanunvericiliyin təkmilləşdirilməsi informasiya texnologiyalarının geniş tətbiqi fonunda rəqəmsallaşmanın da rolunu gücləndirib. Rəqəmsallaşmanın genişləndirilməsi isə vergi ödəyicilərinə yüksək səviyyədə xidmətin göstərilməsinə yol açır.

Beləliklə, iqtisadiyyatın vahid orqanizminin ən ayrılmaz tərkib hissəsi kimi vergi sisteminin normativ-hüquqi bazasının təkmilləşdirilməsi paralel və davamlı xarakter daşıyır. Vergi inzibatçılığının keyfiyyətinin tamamilə yeni standartlar əsasında formalaşır.

### Məcəllənin yeni strukturunu labüd edən əsas amillər hansılardır?

Vergi sistemi ölkə iqtisadiyyatının fundamental hissəsidir və burada islahatlar ölkənin sosial-iqtisadi inkişaf hədəflərinə uyğun həyata keçirilməkdədir. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetləri"nə uyğun olaraq dayanıqlı iqtisadiyyata dəstək, özəl sektorun iqtisadi inkişafda payının artırılması, qeyri-neft sektorunun inkişaf tempinin davamlılığının təmin edilməsi, rəqabətqabiliyyətli insan kapitalının formalaşdırılması kimi hədəflər əsas istiqamətləri müəyyən edir. Habelə, "2022-2026-cı illərə dair sosial-iqtisadi inkişaf strategiyası"nın icrası Vergi Məcəlləsinin daha da rəqabətqabiliyyətli və anlaşılan olmasını, bir sıra məsələlərin detallı tənzimlənməsini və mövcud maddələrin tərkib elementlərinin təkmilləşdirilməsini zəruri edir.

Bu hədəflərə çatmaq üçün vergi inzibatçılığının təkmilləşdirilməsi, optimallaşdırma tədbirlərinin daha da artırılması olduqca zəruridir. Ortamüddətli perspektivdə "kölgə iqtisadiyyatı" ilə sistemli mübarizənin davam etdirilməsi, şəffaflıq səviyyəsinin artırılması üçün vergi siyasətində rəqəmsallaşmanın genişləndirilməsi, iqtisadiyyatın strateji sahələrinin inkişafının stimullaşdırılması, habelə investisiya və kapital qoyuluşu həcminin artırılması üçün vergi təşviqi alətlərindən effektiv istifadə edilməsi labüddür.

Əlverişli biznes mühitinin yaradılması, habelə dövlət-biznes münasibətlərində qarşılıqlı etimadın artırılması baxımından biznes nümayəndələri ilə fikir mübadiləsinin aparılması, onların rəy və təkliflərinin, qarşılaşdığı çətinliklərin, qanunvericiliyin və inzibatçılığın təkmilləşdirilməsi prosesində onların təkliflərinin dinlənilməsi və öyrənilməsi məqsədilə sahibkarlıq subyektləri ilə mütəmadi olaraq sahəvi görüşlər keçirilib. Həmin görüşlərdə irəli sürülən bir sıra təkliflər uğurlu təcrübələr də nəzərə alınmaqla vergi qanunvericiliyində aparılmış dəyişikliklərdə öz əksini tapıb. Bu baxımdan sahibkarlar, sahəvi assosiasiyalar, bütövlükdə biznes və ictimaiyyət tərəfindən qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində təqdim ediləcək təkliflər xüsusi önəm daşıyır.

Beləliklə, biznes icmasının və ödəyicilərin irəli sürdüyü təkliflər vergi orqanı tərəfindən dəyərləndirilərək vergi qanunvericiliyinin təkmilləşdirilməsində nəzərə alınacaq. Sahibkarların irəli sürdüyü səmərəli rəy və təkliflər, eləcə də biznes assosiasiyaları tərəfindən təqdim olunan yeni təşəbbüslər Vergi Məcəlləsində müvafiq dəyişikliklər və təkmilləşdirmələr aparılan zaman nəzərə alınacaq ki, bu da ümumilikdə, ölkəmizdə vergi siyasətinin optimallaşdırılmasında mühüm rol oynayacaq.

***E.CƏFƏRLİ***



# "ING Group"un yeni proqnozu...

## Azərbaycanda inflyasiya 3 il ərzində birrəqəmli olacaq

Niderlandın "ING Group" analitik tədqiqat şirkəti Azərbaycanda orta illik inflyasiya ilə bağlı yenilənmiş proqnozunu dərc edib. Gözləntilərə əsasən, 2024-cü ildə ölkəmizdə orta illik inflyasiyan 2,2 faiz, 2025-ci ildə 4,7 faiz, 2026-cı ildə isə 4,5 faiz səviyyəsində proqnozlaşdırılır. "ING Group"un cari il üzrə qiymət indekslərinə baxışı faktiki olaraq Azərbaycanın rəsmi statistikasına daha çox yaxındır. Belə ki, Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2024-cü ilin iyul ayında istehlak qiymətləri indeksi 2,7 faiz artıb.

### Digər institutların proqnozları da nikbindir...

Bu rəqəmlər digər beynəlxalq iqtisadi institutların proqnozlarına çox yaxındır. Belə ki, Birləşmiş Millətlər Təşkilatının (BMT) proqnozlarına görə, 2024-cü ildə Azərbaycanda orta illik inflyasiya 5 faiz, 2025-ci ildə 3,9 faiz təşkil edəcək. Beynəlxalq Valyuta Fondunun qiymətləndirməsinə görə qiymət indeksi cari ildə 3,5 faiz, 2025-ci ildə 5 faiz, növbəti illərdə isə 4 faiz olacaq. Dünya Bankının proqnozlarında isə inflyasiyanın 2024-cü ildə 3 faiz, 2025-ci ildə 3,5 faiz, 2026-cı ildə 4 faiz təşkil edəcəyi qeyd olunur. "Standard & Poor's" beynəlxalq reytinq agentliyinin iyun ayında açıqladığı yeni sənəddə Azərbaycanda 2024-cü il üzrə orta illik inflyasiyanın 2,9 faiz səviyyəsində proqnozlaşdırıldığı, 2025-2027-ci illərdə isə orta illik inflyasiya gözləntilərinin 3-4,2 faiz olacağı bildirilir.

Azərbaycan hökumətinin 2024-cü ildə inflyasiya gözləntiləri ilə bağlı proqnozu "İNG" lə demək olar ki, eynilik təşkil edir. İqtisadiyyat Nazirliyinin ssenarisinə əsasən, qiymət indeksi 2024-cü ildə 5,3 faiz, 2025-ci ildə 4,9 faiz, 2026-cı ildə 4,4 faiz, 2027-ci ildə 4,2 faiz çərçivəsində müəyyənləşib.

### Dünyada geosiyasi və geoiqtisadi risklər inflyasiya təzyiqi yaradır...

Ancaq hökumət birrəqəmli inflyasiya çərçivəsinə arxayın olmayaraq, qiymət indeksinə təsir edən daxili və xarici faktorları, o cümlədən anti-inflyasiya tədbirlərini prioritet kimi diqqətdə saxlayacaq. Mərkəzi Bankın bəyanatından da görünür ki, 2024-cü il ərzində hökumətin antiinflyasiya tədbirlərinin gücləndirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlərinə uyğun olaraq, bir sıra iqtisadi alətlərdən istifadə olunacaq. MB bazarın olduqca əlverişliliyini, heç bir risk faktorlarının olmadığını nəzərə alaraq uçot dərəcəsini sabit saxlasa da, ehtiyatlılığı da əldən vermir. Belə ki, istehlak qiymətləri indeksinin müəyyənləşməsində daxili amillərlə yanaşı, xarici faktorun təsirləri xüsusi olaraq nəzarətdə saxlanılır. Çünki qlobal bazara tam arxayın olmaq olmaz, bölgədə geosiaysi mürəkkəb proseslər hələ də davam edir ki, bu risklər inflyasiyanı yenidən sürətləndirə bilər. Belə ki, xarici mühitin yüksək həssaslığı, dünyada geosiyasi və geoiqtisadi vəziyyətin daha da gərginləşməsi, beynəlxalq logistika zəncirlərinin pozulması, bir çox ölkələrdə inflyasiyanın hədəf səviyyələrindən yuxarıda qalması gözləntiləri, iqlim dəyişmələri səbəbindən temperaturun artması və digər mənfi xarici şoklar qiymətlərin əlavə artımına səbəb ola bilər.

Ona görə də, hökumət inflyasiya faktorlarını təhlil edərkən inzibati alətləri də yaddan çıxarmaq niyyətində deyil və anti-inflyasiya tədbirləri 2023-cü ildə strateji məqsəd kimi müəyyən edildiyindən bu kurs 2024-2025-ci illərdə də əsas hədəf prioriteti kimi diqqətdə saxlanılacaq. İqtisadi siyasətin əsas çərçivə hədəflərinə uyğun olaraq bütün iqtisadi qurumlar yenəd də işə koordinasiya ediləcək.

### "ING Group"un iqtisadi artım proqnozu da ümidvericidir...

Qeyd edək ki, "ING Group" 2024-cü ildə qlobal iqtisadiyyatla bağlı yenilənmiş proqnozunda Azərbaycan iqtisadiyyatını sabit və inkişaf edən və iqtisadi artımın ümidverici olduğunu əks etdirən göstəriclər əsasında xarakterizə edib. Şirkətin tədqiqat qrupunun rəyinə görə, ölkəmizdə 2024-cü il üzrə iqtisadi artım proqnozunu 3,8 faiz nisbətində müəyyənləşdirib ki, bu da orta dünya göstəricisindən 0,5-1 faiz-bənd yüksəkdir. Şirkət 2025-ci ildə ölkəmizdə artım dinamikasının 2,5 faiz, 2026-cı ildə isə 2,8 faiz səviyyəsində proqnozlaşdırır.

"ING Group"un Azərbaycan iqtisadiyyatı ilə bağlı proqnoz göstəriciləri Azərbaycan hökumətinin cari və yaxın 3 illik inkişaf ssenarilərinə uyğundur. Hökumətin proqnozlarına əsasən, 2024-cü ildə ÜDM real ifadədə 2,4 faiz artaraq 118,4 milyard 2,4 faiz, 2025-ci ildə 2,9 faiz, 2026-cı ildə 2,7 faiz, 2027-ci ildə isə 3,6 faiz təşkil edəcək. Qeyri-neft ÜDM-i isə 2024-cü ildə 4,6 faiz, 2025-ci ildə 2,7 faiz, 2026-cı ildə 4,9 faiz, 2027-ci ildə isə 5 faizə bərabər olacaq.

***Elbrus***



Cənubi Qafqazda sülhün təmin olunması üçün Ermənistan Azərbaycanın haqlı tələblərini yerinə yetirməlidir. Belə tələblərdən biri də erməni tərəfinin ölkəmizə qarşı ərazi iddialarına son qoyulmasıdır. Çünki bu ölkənin konstitusiyasında dövlətimizə qarşı ərazi iddiaları hələ də qüvvədə qalır. Azərbaycan rəsmi səviyyədə bununla bağlı qarşı tərəfə dəfələrlə xəbərdarlıq edib. Nəzərə almaq lazımdır ki, Ermənistanın Müstəqillik Bəyannaməsinin preambulasında "Ermənistan SSR Ali Sovetinin və Dağlıq Qarabağ Milli Şurasının 1 dekabr 1989-cu il tarixli "Ermənistan SSR-ə yenidən birləşmək haqqında" birgə qondarma qərar yer almaqdadır. Yəni rəsmi olaraq Ermənistan hələ də 4.4 min kv km-lik Azərbaycan torpağına iddia ortaya qoyur. Fakt açıq-aşkar ortadadır və əlavə şərhə ehtiyac yoxdur.

# "İrəvan dialoqu"nda ...

## Paşinyanın növbəti absurd iddiaları

### XİN: Qəbuledilməzdir!

Lakin erməni tərəfi bu mövzuda spekulyasiyanı davam etdirməkdədir. Belə ki, Ermənistanın baş naziri Nikol Paşinyan sentyabrın 10-da "İrəvan dialoqu" adlı forumda çıxışı zamanı həm "sülh sazişi" layihəsini, həm də, ümumilikdə 10 noyabr tarixli üçtərəfli Bəyanat ilə bağlı reallıqları açıq-aşkar təhrif edib. Paşinyan çıxışında deyib ki, sülh sazişinin layihəsi mahiyyətcə 80 faizi razılaşdırılıb: "Biz razılaşdırılmış 13+3 müddəalarını masaya qoymağı, indi onları sülh sazişi kimi imzalamağı və gələcək məsələlərin müzakirəsinə keçməyi təklif edirik. Bu auditoriya da razılaşar ki, heç vaxt heç bir yerdə bütün məsələləri həll edən saziş olmayıb. Belə bir müqavilə yoxdur. 20, 50, 100 maddəni araşdırsaq, bu müqavilədə həll olunmamış qalan mümkün maddələr olacaq. Elə ölkələr yoxdur ki, onların münasibətləri vahid müqavilə ilə tənzimlənsin".

Rəsmi Bakı isə erməni tərəfinin bu mövqeyini absurd hesab edir. Məsələ ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə bildirib ki, Ermənistan rəsmilərinin "sülh sazişi" layihəsini razılaşdırılmamış müddəalar çıxarılmaqla imzalanması çağırışı, bununla ikitərəfli münasibətlərdə mövcud problemlərin həllini növbəti mərhələyə saxlamaq cəhdləri qəbuledilməzdir. Çünki İrəvanın sülh sazişi layihəsini hansı formada imzalamaq niyyətindən asılı olmayaraq, Azərbaycanla Ermənistan arasında real və davamlı sülh müqaviləsinin imzalanması üçün əsas şərt başda "Ermənistan və Dağlıq Qarabağın birləşməsi"nə çağıran Ermənistanın Müstəqillik Aktına açıq şəkildə istinad edən Ermənistan Konstitusiyası olmaqla, bu ölkənin çoxsaylı hüquqi və siyasi sənədlərində təsbit olunmuş Azərbaycana qarşı ərazi iddialarına son qoyulmasıdır.

### Tarixi faktdır - indiki Ermənistan tarixi torpaqlarımızda yaradılıb

Guya Azərbaycanın Konstitusiya Aktında Ermənistana qarşı ərazi iddialarının olması barədə Paşinyanın iddialarına gəlincə, Azərbaycan Konstitusiyası ilə Ermənistan Konstitusiyası arasında paralellik və bərabərlik yaratmaq cəhdi yolverilməzdir və heç bir nəticə verməyəcək. Ermənistan Konstitusiyasından fərqli olaraq, Azərbaycan Konstitusiyasında istinad olunan 1991-ci il Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı və 1918-ci il İstiqlal Bəyannaməsində Ermənistana qarşı heç bir ərazi iddiası mövcud deyil. Tarixi faktdır ki, indiki Ermənistan Azərbaycan ərazilərində yaradılıb. Amma bu, hazırda ölkəmizin Ermənistana qarşı ərazi iddiasında olması anlamına gəlməməlidir. Əksinə, ermənilərin özləri də anlamış olurlar ki, indiki dövlətlərinin mövcud olduğu ərazilər əslində, tarixən Azərbaycan xalqına məxsus olub.

Qeyd edək ki, Paşinyanın sülh müqaviləsi layihəsində mövcud olan "heç bir tərəf sülh sazişi çərçivəsində öz öhdəliklərini yerinə yetirməməsi ilə əlaqədar öz daxili qanunvericiliyinə istinad edə bilməz" müddəasını qeyd edərək, bu ölkənin Konstitusiyasında yer alan ərazi iddiasının zərərsiz olduğunu bildirməsi də tamamilə əsassızdır. XİN-in rəsmi nümayəndəsi A.Hacızadənin dediyi kimi, heç bir beynəlxalq sazişin Konstitusiyadan üstün olmadığı hər kəsə yaxşı məlum olan faktdır. Eləcə də, Almatı Bəyannaməsi çərçivəsində Azərbaycanın və Ermənistanın bir-birinin ərazi bütövlüyünü tanıdığı barədə erməni baş nazirin açıqlamasına gəldikdə, Paşinyanın təmsil etdiyi ölkənin məhz bu öhdəliyi kobud şəkildə pozaraq Azərbaycan ərazilərini işğal altında saxladığı faktını xatırlatmaq yerinə düşər.

Ermənistan rəsmiləri, o cümlədən N.Paşinyan regionda kommunikasiyaların açılması məsələsində də beynəlxaql ictimaiyyəti çaşdırmağa çalışır. Kommunikasiyaların açılması 10 noyabr üçtərəfli Bəyanatına əsasən Ermənistanın üzərinə götürdüyü öhdəlikdir və sənəddə konkret müddəalar göstərilib. Üçtərəfli Bəyanatın 9-cu bəndində Ermənistanın hansı öhdəliklərinin olduğu, nəqliyyat əlaqəsi üzrə nəzarətin necə təşkil ediləcəyi açıq-aydın yazılıb. Lakin rəsmi İrəvan hələ də bu öhdəliyi yerinə yetirmir.

### Cinayətkarlar "hərbi əsir" kimi təqdim edilə bilməz

Bundan əlavə, Ermənistan müharibə cinayətləri törətmiş separatçıların azad olunmasını istəyirsə, bu baş verməyəcək. Onlar törətdikləri cinayətlərə görə cavab verəcəklər. Həmin cinayətkarları "hərbi əsir" kimi təqdim etmək cəhdi qəbulolunmazdır. XİN rəsmisinin dediyi kimi: "Hərbi əsirlərin qaytarılması məsələsinə gəldikdə, hərbi cinayətkarların və separatçı xunta rejiminin nümayəndələrinin azad edilməsi barədə Azərbaycan hər hansı bir öhdəliyə malik deyil. Azərbaycan indiyə qədər humanizm prinsipinə sadiq qalaraq hərbi əsirlərin hamısını Ermənistana təhvil verib. Lakin Azərbaycan tərəfindən qaytarıldıqdan sonra hərbi əsirlərin Ermənistan dövləti tərəfindən kütləvi surətdə həbslərə və təqiblərə məruz qalmaları bu dövlətin öz vətəndaşlarına "qayğısı" kontekstində xüsusi təəccüb doğurub".

Paşinyanın həmçinin sözügedən forumda 2023-cü ilin sentyabrınadək Azərbaycanın Qarabağ bölgəsində hərbi fəaliyyətini davam etdirmiş və erməni silahlı qüvvələrini ərazilərimizdən çıxarmayan Ermənistanın guya qaçqın və məcburi köçkünlərlə üzləşdiyini və Qarabağ ermənilərinə qarşı etnik təmizləmə həyata keçirildiyini iddia etməsi də reallıqların aşkar təhrif olunmasıdır. Bütün dünyaya məlumdur ki, 2023-cü il antiterror tədbirlərindən sonra erməniəsilli şəxslərin könüllü əsasda Azərbaycanı tərk edərək Ermənistana və digər ölkələrə köçüblər.



Göründüyü kimi, belə yanaşmaları ilə Ermənistan hakimiyyəti sülhə maraqlı olmadığını nümayiş etdirir. Bu halda, bölgədə yeni gərginliklər baş verə bilər ki, bu da ilk növbədə İrəvan üçün ciddi problemlər yaradacaq. Ona görə də, Ermənistan Azərbaycanın beynəlxalq hüquqa və tarixi ədalətə əsaslanan şərtlərinə əməl edərək sülh sazişini imzalamalıdır.

*Nardar BAYRAMLI*

# "Şimal-Cənub" dəhlizi genişləndirilir

## Astara-Bakı-Həştərxan marşrutu ilə konteyner qatarlarının hərəkəti reallaşacaq

"Şimal-Cənub" Nəqliyyat Dəhlizi ailəsinə üzv ölkələr bu tranzitin genişləndirilməsi istiqamətində təşəbbüsləri artırmaqdadır. Bu istiqamətdə yeniliklərdən biri Astara (İran) - Bakı (Azərbaycan) - Həştərxan (Rusiya) marşrutu ilə konteyner qatarının buraxılması imkanlarının reallaşdırılmasıdır. Rusiyanın Həştərxan vilayətinin Xarici Əlaqələr Nazirliyinin məlumatına görə, hazırda Azərbaycanla Həştərxan vilayəti arasında əsas yük axını dəmir yolu ilə həyata keçirilir. Bu, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Marşrutunun qərb qoludur. Azərbaycandan Rusiyaya bir çox mallar, həmçinin İran, Türkiyə və Hindistandan tranzit yüklər daşınır. Azərbaycanla birgə həmin nəqliyyat qolunun daha da genişləndirilməsi məqsədilə Kutum stansiyasında yerləşən Həştərxan dəmir yolu qovşağının infrastrukturunun yenidən qurulması nəzərdə tutulur. Yeni infrastrukturdan istifadə etməklə Astara-Bakı-Həştərxan marşrutu üzrə konteyner qatarının buraxılması mümkün olacaq.

Həştərxan vilayətinin Xarici Əlaqələr Nazirliyi bu layihənin "Azərbaycan Dəmir Yolları" QSC-nin nümayəndə heyətinin bu günlərdə Həştərxana səfəri zamanı müsbət qiymətləndirilərək razılaşdırıldığını və nəzərdə tutulan plana əsasən, mövcud infrastruktur təminatlarının yaradılacağını bildirib.

### Hədəf ildə 15 milyon tondan çox yük daşınmasını təmin etməkdir

Qeyd edək ki, "Həştərxan vilayəti ilə Azərbaycan Respublikası hökuməti arasında əməkdaşlığın inkişafı üzrə 2024-2026-cı illər üçün Proqramı"na əsasən, Həştərxanın logistika qovşaqları vasitəsilə Azərbaycandan Rusiya Federasiyasına və əks istiqamətdə yükdaşımalarının həcminin artırılması nəzərdə tutulub. Rusiya Prezidenti Vladimir Putinin ötən ay Bakıya səfəri zamanı da "Şimal-Cənub" layihəsinin müstəsna əhəmiyyətinə toxunulub. Bu transmagistralın regional nəqliyyat dəhlizləri, nəqliyyat yolları ilə bağlı xüsusi strateji rolunun artırılması məsələsi əsas müzakirə mövzularından biri olub. Həmin görüşdə bəyan edilib ki, "Şimal-Cənub" dəhlizinin Azərbaycan ərazisindəki dəmir və avtomobil yolları tam şəkildə reallaşdırılıb və uğurla fəaliyyət göstərir. Hazırkı mərhələdə isə ölkəmiz dəhlizin ötürücülük qabiliyyətini yük-




səltmək üçün onun dəmir yolu sahəsinin modernləşdirilməsi ilə məşğuldur. Hədəf ildə 15 milyon ton və daha çox yüklərin daşınması imkanlarını təmin etmək üçün bütün zəruri infrastrukturları müasirləşdirməkdir. Kutum stansiyasındakı dəmir yolunun yenilənməsi və Azərbaycanın şimal dəmir yolu xətti ilə birlikdə tam müasirləşdirilərək vahid şəbəkəyə inteqrasiya olunması da məhz həmin tədbirlərin tərkib hissəsidir.

### "Şimal-Cənub" həm də "Trans-Xəzər"lə nəqliyyat sistemində birləşəcək

Nəqliyyat dəhlizinin ən mühüm quru hissəsi Rusiya, Azərbaycan və İrandan keçir və hər 3 ölkə bu marşrut xəttinin tamamilə modernləşdirilməsində və digər kənar nəqliyyat qovşqları ilə birləşməsində maraqlıdır.

"Şimal-Cənub" dəhlizinin digər marşrutlarla müqaisədə əsas üstünlüyü tranzit məsafəsinin və tranzit vaxtının iki-üç dəfə az olmasıdır.



Əgər dəniz yolu ilə daşıma İran körfəzi və Hind Okeanı, Süveyş kanalı, Aralıq Dənizi, Baltik Dənizindən keçərək Helsinki şəhərinə 45-60 gün ərzində daşıma müddəti təşkil edirsə, Şimal-Cənub Tranzit Dəhlizi ilə bu müddət 20-25 gün təşkil edir. Yəni bu nəqliyyat arteriyası dünya üçün ən əhəmiyyətli daşınma xətlərindən biri kimi aktuallığını daha da artırır.

Rusiya və Azərbaycan, eyni zamanda, "Şimal-Cənub" marşrutunun "Trans-Xəzər" bölməsi ilə yük daşımalarının artırılması istiqamətində də fəal iş aparılır. Məqsəd hər iki ölkənin bu nəqliyyat dəhlizinin gücünü daha da artırmaq, Xəzər klasteri zonasında bütün obyektlərinin, xüsusilə liman infrastrukturu və konteyner qovşaqlarının əlaqələndirilməsi ilə geniş bir dəniz yükdaşıma sisteminin yaradılmasıdır.

Yeri gəlmişkən, Azərbaycan və Rusiya "Ulyanovsk-Bakı-Astara" birbaşa yük blok qatarının marşrutunu da istifadəyə hazı vəziyyətə gətirməkdədir ki, bu nəqliyyat xətti də "Şimal-Cənub" dəhlizi ailəsinin tərkib hissəsidir. "Ulyanovsk- Bakı - Astara" marşrutu "Orta Volqa - Xəzər dənizi - Fars körfəzi" logistika layihəsinin qərb dəmir yolu dəhlizi hesab edilir və aqrar-sənaye, o cümlədən ağac emalı məhsullarının daşınmasını nəzərdə tutur.

### Azərbaycan Cənub dəmir yolunu da yenidən qurur

Azərbaycan həm də dəhlizin cənub seqmentində dəmir yolu infrastrukturlarını da müasirləşdirir. İndiyə qədər öz dəmir yolu xətlərinin İran dəmir yollarına birləşdirilməsinə dair xeyli işlər görüb, Azərbaycanın Astara stansiyasından İranın Astara şəhərinə qədər dəmir yolu artıq inşa edilib. Hazırda dəhlizboyu daşımaların əsas hissəsi yük maşınlarından istifadə etməklə həyata keçirilir. Cənubdan daxil olan yük axınlarını qarşılamaq üçün İran və Azərbaycan öz dəmir yollarını tam birləşdirməyi qərar alıb və bu məqsədlə 167 km uzunluğunda Astara-Rəşt dəmir yolunun tikintisi nəzərdə tutulur.

Mövcud infrastrukturların qurulması və yeni dəmir yolu xətlərinin birləşdirilməsindən sonra Şimal dövlətləri öz nəqliyyat xətlərini dəhlizə tam inteqrasiya edəcək, Skandinaviyanın nəqliyyat xətləri Rusiya, Azərbaycan və İranın dəmir yolları bir şəbəkədə birləşəcək və Şimaldan İran körfəzinə qədər vahid dəmir yolu formalaşacaq. Həmçinin, layihənin digər iştirakçı tərəfləri olan Orta-Mərkəzi Asiya ölkələri də öz dəmir yolu xətlərini bu dəhlizə inteqrasiya etməkdədir.

Göründüyü kimi "Şimal-Cənub" Nəqliyyat Dəhlizi region ölkələri üçün öz strateji əhəmiyyətini daha da artırmaqdadır. Hindistandan və İran Körfəzi regionundan, yüklərin Rusiya, Qərbi Avropa, Baltikyanı və Skandinaviya ölkələrinə yük və daşınmaların fasiləsiz hərəkətini təmin edən dəhlizin rentabelliliyi ildən-ilə daha da yüksəlir. 13 ölkənin təmsil olunduğu bu nəqliyyat xəttində hazırda aparılan infrastruktur yeniləmələri "Şimal-Cənub" arteriyasının daha da hərəkətliliyinin güclənməsinə hesablanıb.

*E.CƏFƏRLİ*

# Gürcüstan xarici qrantlara "yox" deyir

Son vaxtlar getdikcə daha çox dövlət vətəndaş cəmiyyəti təsisatlarına maliyyə dəstəyini öz öhdəsinə götürür. Bununla onlar ilk növbədə milli təhlükəsizliklərinin qeydinə qalmış olurlar. Azərbaycan artıq uzun müddətdir ki, bu təcrübəni tətbiq edir və yaxşı da nəticələr qazanıb. Artıq xarici qrantlara "yox" deyən ölkələr sırasına qonşu Gürcüstan da qoşulur. Bu barədə Gürcüstanın Baş naziri İrakli Kobaxidze keçirdiyi brifinqdə məlumat verib.

### Qonşu ölkənin vətəndaş cəmiyyətini "əsir" alan xarici qrantlar

Son vaxtlarda imperialist güc mərkəzlərinin milli dövlətlərin daxili işlərinə qarışmaq, onlara təzyiqlər göstərmək, siyasətlərinə yön vermək cəhdləri artıb. Onlar öz dəyərlərini milli dövlətlərə ixrac etməklə dünyanın müxtəlif regionlarında mövcudluqlarını gücləndirmək və siyasi-iqtisadi-hərbi təsir imkanlarını artırmaq məqsədi güdürlər. Müşahidə edilən odur ki, həmin mərkəzlər özlərinin bədniyyətli siyasətlərini milli dövlətlərdə vətəndaş cəmiyyəti təsisatlarına güclü maliyyə dəstəyi yönəltməklə həyata keçirirlər. İndiyədək Gürcüstan da belə ölkələr sırasında olub. Qonşu dövlətin vətəndaş cəmiyyətininin bütünklüklə xarici qrantların "əsirliyində" olduğu fikirini ifadə edə bilərik. Hazırda kiçik, beş milyonluq Gürcüstanda Qərb qrantları alan qeyri-hökumət təşkilatlarının sayı əhəmiyyətli dərəcədə artaraq 10 mini ötüb. "Gürcüstan online" nəşrinin məlumatına əsasən, ABŞ və Avropadan gələn pullarla QHT-lər çoxsaylı sosial və siyasi problemləri həll edirlər. QHT-lər əsas maliyyə dəstəyini bir çox beynəlxalq təşkilatdan alırlar. Ən böyük donorlara aşağıdakılar daxildir: Corc Sorosun "Açıq Cəmiyyət" Fondu, "Demokratiyanı Dəstəkləyən Avropa Fondu", Amerikanın "Milli Demokratiya İnstitutu" və "Demokratiyanı Dəstəkləyən Milli Fond" (USAID və NED), Almaniya təsisatları - "Konrad Adenauer Fondu", "Fridrix Ebert Fondu", "Henri Bell Fondu", "AyREKs" beynəlxalq qeyri-kommersiya təşkilatı, "Emnesti Interneşnl". Sorosun "Açıq Cəmiyyət" Fondu Gürcüstanda 1994-cü ildən fəaliyyət göstərir və o vaxtdan ölkəyə 100 milyon dollardan çox vəsait yönəldib. 2023-cü ildə "Avropa naminə Vahid Gürcüstan" layihəsi başlayıb. Məqsəd Gürcüstanın Avropa İttifaqına inteqrasiyasını təşviq etməkdir.

Cari ilin birinci yarısında Gürcüstan parlamenti hakim "Gürcü arzusu" partiyası tərəfindən irəli sürülən "Xarici təsirin şəffaflığı haqqında" qanun layihəsini təsdiqlədi. Ancaq bu qanunun qəbulu heç də asan başa gəlmədi. Təxminən iki il ərzində hakim komanda cəmiyyətin, müxalifət partiyalarının ciddi etirazları ilə üzləşdi. Hətta hakimiyyət daxilində parçalanmalar baş verdi. Prezident Salome Zurabişvili etirazçı qüvvələri dəstəkləyən bəyanatlarla çıxış etdi.

Tbilisidə baş verən məlum hadisələri yalnız hansısa bir qanuna görə yaranan narazılıq kimi təqdim etmək doğru olmazdı. Əslində, qonşu ölkəni qarışdıran siyasi qarşıdurmanın daha dərin altqatları var. Burada söhbət daha çox Gürcüstanın starteji seçmindən gedir. Hazırda qonşu ölkə "milli maraqlar, yoxsa Avropa "demokratiyası" sualı ilə üz-üzə qalıb. Məsələ burasındadır ki, Qərb uzun müddətdir ki, Gürcüstanı daha sıx şəkildə özünə bağlamaq və bir növ asılı vəziyyətə salmaq planını həyata keçirirdi. Yuxarıdakı faktlardan da göründüyü kimi, burada ayrı-ayrı Qərb institutlarından qrantlar alan qeyri-hökumət təsisatları, müxalif partiyalar, media subyektləri, necə deyərlər, yağışdan sonra göbələk kimi çoxalıb. Təbii ki, musiqi onu sivariş verənin istəyinə uyğun çalınır. Qərbdən maliyyələşən subyektlər fəaliyyətlərini bəlli mərkəzlərdən aldıqları tezislərə uyğun qurmaq məcburiyyətindədirlər.





Əks təqdirdə maliyyə qaynağından məhrum qala bilərlər. Qərbdən gələn tezislər isə bir qayda olaraq ölkə hakimiyyətinin strateji kursunu iqnor edir, cəmiyyətdə parçalanmaya yol açır. Milli maraqlara təhdidlər yaranmasının fərqində olan hakimiyyət də məsuliyyətini başa düşərək Gürcüstan cəmiyyətinə kənar təsirləri minimallaşdırmağa çalışır.

### Yeni qanun özündə nəyi ehtiva edir?

Gürcüstanda qəbul olunan "Xarici təsirlərin şəffaflığı haqqında" qanuna əsasən, illik gəlirinin 20 faizdən çoxunu xarici dövlətlərdən, beynəlxalq təşkilatlardan, Gürcüstan vətəndaşı olmayan qurum və şəxslərdən əldə edən və dövlət tərəfindən təsis edilməyən media orqanları və QHT-lər Gürcüstandakı "xarici gücün maraqlarını güdən təşkilat" kimi reyestrdən keçməlidirlər. Qanuna verilən izahata görə, xarici dövlətlərin maraqlarını güdən təşkilat anlayışını təqdim etmək və müvafiq olaraq bu qurumların qeydiyyatına başlamaq lazımdır.

Reyestrdən keçməyənləri isə maliyyə sanksiyaları gözləyir. Lakin onun normaları fiziki şəxslərə şamil edilməyəcək. Gəlirlərinin 20 faizdən çoxu xaricdən gələn qeyri-kommersiya hüquqi şəxslər və mətbuat orqanları qanunun təsir dairəsində olacaqlar. Belə təşkilatlar hər ilin yanvar ayında Ədliyyə Nazirliyinə xərcləri haqqında bəyannamə təqdim etməlidirlər. Bu öhdəliyi yerinə yetirməsələr, 25 min lari (təxminən 9,3 min dollar) məbləğində cərimələnəcəklər. Cərimədən sonra belə bəyannamə təqdim edilməzsə, bəyannamənin vaxtı keçmiş hər ay üçün 20 min lari (təxminən 7,4 min dollar) tutulacaq.

### Dövlət özü QHT-lərə maliyyə dəstəyi göstərəcək

Perspektivdə Gürcüstan dövlətinin özü ölkədə fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarına maliyyə yardımı göstərəcək. Ölkədə QHT-lər dövlət büdcəsindən xarici donorlardan aldıqları maliyyədən 1-2 dəfə çox maliyyə alacaqlar. Baş nazir İrakli Kobaxidzenin brifinqdə ifadə etdiyi fikirlərə görə, Gürcüstan hökuməti "xarici agentlər" reyestrində qeydiyyatdan keçmiş QHT-lər üçün qrant proqramı yaradacaq.

"Öz işini layiqincə yerinə yetirən və gürcü xalqının mənafeyinə xidmət edən qeyri-hökumət təşkilatları dövlət büdcəsindən xarici donorlardan aldıqları maliyyədən bir-iki dəfə çox vəsait alacaqlar", - deyə Baş nazir bildirib.

Bununla bağlı qanun layihəsi hazırlanır və qanun 2025-ci ilin yanvarından qüvvəyə minəcək.

*MÜBARİZ*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti üzrə hazırlanmışdır**

# Müqəddəs və toxunulmaz xəzinəmiz...

## Adət-ənənələrimiz necə təbliğ edilməlidir?

Hər bir milləti tanıdan və digər xalqlardan fərqləndirən ən önəmli xüsusiyyətlərdən biri onun adət və ənənələri, yüksək mənəvi dəyərlər sisteminə malik olmasıdır. Qədim tarixi olan milli adət-ənənələrimizin formalaşdırdığı dəyərlər sistemi güclü dövlətçilik quruculuğu ilə sıx vəhdət təşkil edir. Bu baxımdan qloballaşan dünyada milli adət və ənənələr, onun əsasında formalaşdırılan yüksək mənəvi dəyərlər sistemi hər bir millətin mənəvi, mədəni simasını göstərir.

Xalqımızın yüksək mənəvi dəyərlərindən xəbər verən, min illər öncəyə gedib çıxan adət və ənənələri millətin keçmişi, bu günü və gələcəyi arasında dayanıqlı, sarsılmaz mənəvi körpü rolunu oynayır. Qeyd edək ki, mənəvi dəyərlər, milli adət-ənənələr cəmiyyətdə zamanla formalaşır və sonradan ictimai mühitdə rol oynayır, insanların həyat tərzinə, onun formalaşmasına, milli şüurun əməl gəlməsinə mühüm təsir edir. Əlbəttə ki, milli dəyərlərin yaradıcısı elə xalqın özüdür. Tarixdən tez-tez müşahidə etmişik ki, hansı cəmiyyət öz yaratdığı dəyərlərə, milli adət-ənənələrə üz çeviribsə, həmin cəmiyyət, xalq sıradan çıxıb, məhv olub. Bu baxımdan hansısa xalqı, cəmiyyəti məhv etmək üçün onun milli dəyərlərini məhv etmək kifayətdir.



Mövzu barədə fikirlərini "Yeni Azərbaycan"la bölüşən sosioloq-alim Əhməd Qəşəmoğlu bildirib ki, milli adət-ənənələrin öyrənilməsi və onların mənəvi dəyərlər sisteminə çevrilməsi həmişə aktual olub. Çünki tarixin bütün dövrlərində millətin və xalqın ictimai şüur səviyyəsini əks etdirən adət və ənənələr klassikləşib və mədəni irsə çevrilib. Sosioloq qeyd edib ki, yeni yaranan mənəvi dəyərlər də varislik prinsiplərinə uyğun olaraq keçmiş adət və ənənələrdən bəhrələnib. Lakin bu, mənəvi dəyərlərin inkişafına, yeniləşməsinə mane olmayıb: "Milli-mənəvi dəyərlərimiz xalqımızın simasında zaman-zaman yaşayıb. Bizi başqa xalqlardan, millətlərdən fərqləndirən də elə bir çox məqamda milli-mənəvi dəyərlərimiz, mədəniyyətimiz, mənəviyyatımızdır. Bu mənada, Azərbaycan ailəsi də başqa ailələrdən fərqlənir. Ailələrimizdə böyüyə hörmət, ata-anaya sevgi, ehtiramla davranmaq, kiçiklərə qayğı, diqqət əsas göstəricilərdəndir. Bizim gələcək nəsillərə örnək olan əxlaq, tərbiyə simvolu, məhəbbət etalonu kimi daim hörmətlə anılan nümunəvi ailələrimiz çoxdur. Bu ailələr Azərbaycan xalqına sözün həqiqi mənasında böyük şəxsiyyətlər, dahilər bəxş edib.

Azərbaycan müasirləşən, Avropa və dünya birliyinə sürətlə inteqrasiya edən ölkədir. Təbii ki, müasir dünyada sürətlə davam edən qloballaşma prosesləri bizim də ölkədən yan keçməyib. Buna baxmayaraq, qloballaşma adı altında öz milli dəyərlərimizi unutmamalı və bu dəyərlərə sadiq olmalıyıq. Hər bir ölkə və xalq üçün onun milli dəyərləri hər şeydən üstün tutulmalı və digər xalqların dəyərləri ilə ziddiyət təşkil etməməlidir. Bu baxımdan biz qloballaşma deyəndə Azərbaycanda beynəlxalq əməkdaşlığı, xoş münasibətləri, səmimi dostluğu nəzərdə tuturuq. Biz hər zaman qloballaşma adı altında digər xalqların adət-ənənələrinə zidd olan, milli mentalitetə xas olmayan dəyərlərə qarşı mübarizə aparmalıyıq. Təbii ki, bu mübarizədə milli mənliyimizi qorumaq ən vacib şərtlərdəndir".

Sosioloq qeyd edib ki, bu gün adət-ənənənin, milli-mənəvi dəyərlərin, milli mənsubiyyətimizin təkcə formal surətdə deyil, həm də məzmun baxımından təsbit olunması uğrunda aparılan mübarizə həm də elmi-nəzəri əsaslara söykənməlidir: "Xüsusilə televiziyanın, mətbuatın, milli mənəviyyata yad elementlərlə dolduğu bir vaxtda mənəvi mühitin qorunması vacib məsələ kimi realizə olunmalıdır. Müasir dövrdə ən aktual problemlərdən biri qloballaşma prosesi ilə milli adət-ənənələr arasinda optimal nisbətin tapılmasıdır. Qloballaşma prosesi elm, texnologiya ilə və ümumbəşəri dəyərlərlə yanaşı milli kimliyi müəyyən edən mədəni-mənəvi amillərə də sirayət etməyə cəhd göstərir. Belə bir şəraitdə ilk növbədə nələri qorumaq lazım olduğunu, məhz hansı məsələlərdə məqsədyönlü surətdə ənənəçi, konservatoriya olmağın labüdlüyünü ziyalılar müəyyənləşdirilməlidir".

*Yeganə BAYRAMOVA*

# Avropanın müdafiə "qorxusu"

## NATO dağılacağı təqdirdə...

Bu ilin noyabrında ABŞ-da baş tutacaq prezident seçkiləri Avropa qitəsində də diqqətlə izlənir. Çünki bu seçki bir sıra məziyyətlərinə görə əvvəlkilərdən seçilir - namizədlərin xarici siyasət kursu ilə bağlı fərqli düşüncələri, qlobal məsələlərə yanaşmada bir-birinə zidd mövqeləri, hətta müttəfiqlərə münasibətdə belə birmənalı olmayan rəylər "köhnə qitə" üçün düşündürücüdür - hazırda Ağ Evin gələcək sahibinin Avropadan nə istəyəcəyindən çox, Avropaya nə verəcəyi müzakirə edilir.

Məsələlərin əsas nüvəsində isə hər zaman olduğu kimi təhlükəsizlik amili çıxış edir. Ümumən Qərbin hərbi çətiri sayılan NATO-nun gələcək taleyi də müəyyən qismdə bu seçkilərdən asılıdır. Bununla yanaşı, "köhnə qitə"nin özündə də ordu və təhlükəsizlik məsələsi ilə bağlı illərdir davam edən "xətdən çıxmalar" daha da intensiv şəkildə gözə dəyir. NATO-nun Baş katibi Yens Stoltenberqin öz kürsüsünü bu ilin oktyabrında Niderlandın keçmiş baş naziri Mark Ruttenə təslim eedəcəyi qurum daxilində "mərkəzəqaçma" siyasətini daha da gücləndirə bilər...

## Tramp ABŞ-ı Alyansdan çıxarsa, "köhnə qitə" "B" planına keçəcək

### 70 il əvvəl də Fransa təklif etmişdi...

Mütəmadi şəkildə gündəmə gətirilən Avropa ordusu ideyası ilk dəfə 1950-ci ildə ortaya çıxıb. Bu, Fransanın Şimali Atlantika Müqaviləsi imzalanmasından bir il sonrakı mövqeyi idi - çünki o dövrdə müqavilə hər hansı hərbi strukturların yaradılmasını nəzərdə tutmurdu. Şimal Alyansının hərbiləşməsi 1950-ci illərin əvvəllərindən etibarən ABŞ-ın NATO silahlı qüvvələrinin yaradılması zərurətini ortaya atması ilə gerçəkləşmişdi. Üstəlik, o dövrdə Mərkəzi Avropanın əsas dövlətlərindən sayılan Almaniya Federativ Respublikası hələ NATO üzvü olmasa da, bu ölkənin potensialının nəzərə alınması planlaşdırılırdı - güman edilirdi ki, Qərbi Almaniyanın NATO ordusuna qoşulması üçün ən azı on diviziyası formalaşmalıdır. Bu isə, təbii olaraq Almaniya işğalından təzəcə yaxasını qurtarmış Fransanın kəskin mənfi reaksiyasına səbəb olurdu. Paris alman hərbi potensialının belə sürətlə canlanmasına tamamilə hazır deyildi - beləliklə də, IV Respublikanın hər iki prezidenti Avropa ordusu variantını təklif etdi. Bu ordunun NATO-dan fərqi fransız serjantlarının rəhbərlik etdiyi qarışıq batalyonlardan (Fransız, Alman, Hollandiya, Belçika və s.) ibarət olması nəzərdə tutulurdu. Fransızların fikrincə, bu, daha təhlükəsiz variant idi.

Lakin "layihə" beşikdəcə" boğuldu. Əsas səbəb maliyyə idi - ordunun saxlanılması üçün maliyyənin əsas hissəsi ABŞ tərəfindən tədarük edilirdi. Bu baxımdan da, Avropa ordusu ideyası "qeyri-praktik" adlandırıldı. O ki qaldı, "komandanlıq" məsələsinə, bu da öz həllini tapdı - NATO-nun hərbi birliklərinə inteqrasiya etmiş Avropa ordusunun yaradılması haqqında "sənədin" son iki bəndində də deyilirdi ki, Avropada ciddi münaqişə baş verərsə, ordu NATO-nun ümumi komandanlığı altında fəaliyyət göstərəcək. Beləliklə, Avropa ordusu fikri tam şəkildə NATO-ya proyeksiya edildi.

### Fikir ayrılığının əsas səbəbləri...

Bu ideyanın "sönməsindən" təxminən 70 il sonra Avropa Ordusu fikrinin yenidən ortaya atılması məntiqi olaraq bir fikri təsdiqləyir - müttəfiqlər arasında fikir ayrılığı mövcuddur. Situasiyaya diqqət yetirdikdə isə görürük ki, fikir ayrılığının motivləri günügündən artır:

- ABŞ nəzarətində olan hazırki NATO rəhbərliyi bu il yayın əvvəlində Rusiyadakı silah obyektlərinin məhv edilməsi üçün Qərb silahlarının istifadəsinə qoyulan qadağanın aradan qaldırılmasına çağırış etmişdi. Bu çağırışdan sonra Böyük Britaniya, Latviya, Litva, Niderland, Polşa, Finlandiya, Fransa, Çexiya, İsveç və Estoniya Ukraynaya öz silahları ilə Rusiya ərazisinə zərbələr endirməyə icazə vermişdi. Bununla belə icazə 32 üzvün təxminən 1/3 tərəfindən verilmişdi - Avropa kontingentində münaqişənin bitməsini zəruri sayan dövlətlər bu icazə kampaniyasına qoşulmamışdı.

- NATO-nun genişlənmə planı üzərində aparılan iş bəzi dövlətlərin "ürəyincə" deyil. Onların düşüncəsinə görə, Şimal Alyansı özünün kontingentini artırmaqla səhvə yol verir. Çünki bəzi üzvlər arasında tarixi ziddiyyətlərin olması məsələni qəlizləşdirir. Eyni zamanda, kiçik ölkələrin qurumda hərbi kontingentlə iştirak edə bilməmələri də bu narazılığı genişləndirir.

- Və nahayət yenidən maliyyə məsələsi... Bir sıra ekspertlərin də bildirdiyi kimi, NATO-nun "nüvə çətiri" birmənalı şəkildə ABŞ-ın ixtiyarındadır. Nəzərə alsaq ki, bu daha çox maliyyə tələb edir və NATO-nun ümumi xərclərinin də mütləq əksəriyyətini Vaşinqton ödəyir, Avropanın "müşahidəçi" missiyası qınanır. Başqa sözlə, ABŞ onun hərbi təhlükəsizlik çətiri altında olan Avropanın ən azından maliyyəni artırmalı olduğunu düşünür. Yeri gəlmişkən, Donald Trampın prezident seçiləcəyi təqdirdə ABŞ-ın Alyansdan çıxma ehtimalı da məhz bu səbəblə əlaqələndirilir.



### Alyansı gözləyən "günlər"...

Beləliklə, zaman Alyansın zərərinə işləyir. Avropa ilə ABŞ arasındakı fikir ayrılığının Ruttenin Baş katib kimi fəaliyyətə başlamasının ardından daha da dərinləşəcəyi proqnozlaşdırılır. Bu isə klassik Avropa ilə yeni Qərb yanaşması arasındakı tarixi çəkişmələrin yenidən alovlandıra bilər. Düzdür, Trampın prezident seçiləcəyi təqdirdə Rusiya-Ukrayna müharibəsini bitərəcəyi ilə bağlı bəyanatı mərkəzi Avropanın maraqlarına uyğun gəlsə də, klassik qitə təmsilçilərinin bəzilərinin planları ilə uzlaşmır. Beləliklə, Ukrayna-Rusiya qarşıdurmasına qədərki dövrdə kollektiv Qərb anlayışı bütöv bir orqanizm xarakteri daşıyırdısa, artıq 2024-cü ildə Qərbin vahid maraqlar toplusu ən azından "Avropa Ordusu" ideyası ilə küncə sıxışdırılır. Həm Avropa, həm də "yeni Qərbçilər" anlayırdı ki, "Avropa Ordusu" "söz birləşməsi" vahid qütb olmaq arzusunu darmadağın edir. Kollektiv müdafiə refleksi bir nöqtədən - NATO-dan parçalanmaya məruz qalır. Ortada bir istisna var ki, mərkəzi Avropa ölkələrinin Rusiyaya münasibəti siyasi-hərbi motivlər üzərində deyil, iqtisadi - qarşılıqlı mübadilə mexanizmi üzərində inkişaf etdiriləcək.

### Fon der Leyenin proqramında Avropanın müdafiəsi...

Göründüyü kimi, 70 ildən sonra yenidən Fransa tərəfindən gündəmə gətirilən ideya Avropanın özündə də siyasi parçalanma yaradır. Yenicə və yenidən Avrokomissiya rəhbəri seçilən Ursula Fon der Leyen bu ideyaya "isti" yanaşsa da, Aİ prizmasından qiymətləndirsə də, ehtiyatlı davranır - hətta ikinci dönəm komissiya sədrliyi üçün səsvermədən əvvəl AP-də yeni proqramını təqdim edən fon der Leyen NATO ilə əməkdaşlıq çərçivəsində (bunu xüsusi qeyd etmək lazımdır) Avropa Müdafiə İttifaqının yaradılması və Avropa Hava Qalxanı da daxil olmaqla bir çox hərbi layihələrin həyata keçirilməsi məqsədini açıqlamışdı.

Fon der Leyen qarşıdakı beş ildə əsl Avropa Müdafiə İttifaqının formalaşdırılmasına və müdafiə məhsulları, xidmətləri üçün vahid bazarın yaradılmasına diqqət yetirəcəyini, Avropaya ortaq maraq kəsb edən müdafiə layihələri təqdim edəcəyini, üzv dövlətlərin müdafiə sənayesi və bununla bağlı yeni texnologiyaların koordinasiyasını təmin edəcəyini bildirmişdi. Fon der Leyenin proqramındakı yeniliklərdən birini Avropanın müdafiə impulsunun qaldırılması idi.

Fərq ondadır ki, Fon der Leyen bu fəaliyyəti hələ ki, NATO çərçivəsində aparmağı düşündüyünü "söyləyir". Amma ABŞ-a yaxın Stoltenberqin Avropanın "adamı" olan Ruttenlə əvəzlənməsi Fon der Leyenin də planlarına təsir göstərə bilər - bu istisna edilmir...

*P.İSMAYILOV*

# Redikүllər erməni lobbisinin əmrlərində...

## Əli Kərimli ermənipərəst Ben Kardeni təbliğ edir

Redikül müxalifətin xarici ermənipərəst mərkəzlərin sifarişi əsasında hərəkət eməsi növbəti dəfə özünün faktoloji təsdiqini tapıb. Antimilli fəaliyyətlə məhğul olan, hətta Vətən müharibəsi dövründə siyasi həmrəylikdən kənarda duran, nəhayət, ölkəmizin uğurlarına qarşı kampaniyaların əsas aləti kimi çıxış edən AXCP Qərbin direktivlərinə əsaslandığı bir daha nümayiş etdirdi.

İlk olaraq onu vurğulayaq ki, verilən sifarişə əsasən, sosial şəbəkələrdə AXCP sədri Əli Kərimli iştirakdan yayındığı seçki prosesinə qara yaxmaqla bərabər qarşıdan gələn növbəti mühüm siyasi tədbiri - COP29-u da hədəfə alır. Ənənəvi yalanlarına sığınan AXCP sədri bu dəfə də şər-böhtana üstünlük verib - Azərbaycandakı demokratik mühitə qara yaxmağa, dövlətimizin uğurlarını kiçiltməyə və ən əsası insan hüquqlarının qorunması ilə bağlı ölkəmizdəki mühüm fəaliyyələri gözdən salmağa cəhd göstərib. Onun "arqumenti" isə yenə də olmayan "siyasi məhbus" yalanlarıdır.

### Xəyanətkarlığa əsaslanan "yol"...

Özünün və ərafındakıların bütünlüklə əzbərlədikləri "mətndən" kənara çıxmayan Əli Kərimlinin göstərişi ilə redikül xainlər dəstəsi COP29-a qarşı hücum kampaniyasına başlayıb. Kiçik bir monitorinq aparılsa görmək olar ki, nəinki sosial şəbəkələrdə paylaşılan postların məntiqi və ya motivi, hətta cümlələri belə eynidir. Özündən "geosiyasi manevrlər" kəşf edən Kərimli və dəstəsi dolayısı ilə COP29-un Azərbaycanda keçirilməsi üçün verilən qlobal dəstəkdən narahat olduqlarını ortaya qoyurlar. Bu "narahatlıqlar" isə okeanın o biri tayından ixrac edilən "fikirlərlə" ifadə edilir.

Kərimlinin boş pafos üzərində bərqərar olan "fikirləri"nin kökündə özünün və təmsil olunduğu siyasi azlığın xəyanətkar yolda olması bütün ştrixləri ilə görünür. Xüsusilə xalqımızın həssas olduğu ümummilli məsələləri belə saya salmayan Əli Kərimli Azərbaycana, bütün Türk dünyasına düşmən gözü ilə baxan, erməni marağının "kölgəsi" saylan şəxslərə istinad etməklə əsl niyyətini və simasını ortaya qoyur. İllərdir ki, ən azından "partiya sədri" olan Əli Kərimli bilmirmi ki, böyük "sevgi" ilə öydüyü və istinad etdiyi Ben Karden kimdir?

### Karden kimdir?

Vətən müharibəsi dövründə ermənilərə qarşı hər hansı bir təbliğatda yer almayan, hətta öz partiyadaşlarına belə "müraciət etməyən", erməni vandalları haqda bir söz deməyə cürəti çatmayan Əli Kərimli bu gün "beynəlxalq birliyi", bütün "demokratik dövlətləri" senator Ben Kardinin anti-Azərbaycançı, yalan və böhtandan ibarət çağırışına qoşulmağa çağırır. Bu həmin Ben Kardendir ki, işğal dövründə dəfələrlə Qarabağdakı separatçı hərəkata dəstək verməsi faktı, Azərbaycanda insan haqlarının vəziyyəti ilə bağlı əsassız, qərəzli bəyanatları da xatirimizdədir. Bu həmin Ben Kardendir ki, Azərbaycanı "işğalçı" adlandırır və kollektiv Qərbi Azərbaycanın "Ermənistan torpaqlarını "işğal" etməsinə səssiz qalmaqda ittiham edir. Bu həmin Ben Kardendir ki, "Dağlıq Qarabağ qaçqınlarının hüquqlarının müdafiəsi" ilə bağlı saxta fikirlər səsləndirir...

Siyahını daha da uzatmaq olar. Türk düşməni sayılan Karden emənilərin saxta "soyqırım" iddiası üzərində israr edənlərdəndir. Onun erməni lobbisinin bir nömrəli adamı olmasına zərrə qədər şübhə yoxdur - Əli Kərimli isə bu dəqiqələrdə Kardenin "adamı" olmaq üçün əldən-ayaqdan gedir...

*MƏNSUR*

# ABŞ-da debat gecəsi...

## Harris ilə Tramp arasındakı ilk söz dueli baş tutdu

Noyabrda ABŞ-da keçiriləcək prezident seçkilərində yarışacaq Donald Tramp və Kamala Harris sentyabrın 10-da "ABC" kanalı tərəfindən Pensilvaniya ştatının Filadelfiya şəhərində təşkil olunmuş teledebatda qarşı-qarşıya gəliblər. Uzun müddətdir ki, hazırlığı gedən bu görüşə maraq həddindən artıq böyük olub - qısa zamanda debata sosial mediada baxış sayı milyarda yaxınlaşıb.

Debatın gedişi və aparılan müzakirələrə keçməmişdən öncə, görüşün nəticələri ilə bağlı fərqli fikirlərin irəli sürüldüyü diqqəti cəlb edir. Belə demək mümkündürsə, hansısa tərəfin açıq üstünlük qura bilmədiyi bu görüş seçici auditoriyasına müraciətdə əsaslı anlam daşıyıb - çünki görüşdə ölkənin gələcəyi, vergi faizləri, xarici siyasət hədəfləri, qlobal münaqişələrə münasibət, hətta miqrasiya və reliqiyaobiya kimi məsələlər də müzakirə predmetinə çevrilib.

### Trampdan çağırış - Biz qısa zamanda onları çıxarmalıyıq

Debat Harrisin təşəbbüsü ilə namizədlər arasında əl sıxışması ilə başlasa da, yayım zamanı gərgin anlar yaşanıb. İlk "hücum" Harrisdən gəlib və o, dünya liderlərinin Donald Trampa güldüklərini iddia edib: "Mən ayrı-ayrı ölkələrin siyasi-hərbi rəhbərləri ilə danışdığım zaman, onlar Trampa gülürdülər".

Tramp da vitse-prezidentə "söz atıb" - onu ifrat solçuluqda ittiham edib. Bir vaxtlar "marksist" adlandırdığı Harrisi bu dəfə solçu "elan edən" Trampın məqsədi isə fərqlidir - ABŞ siyasətində mühafizəkarlar rəqiblərini fərqli oriyentasiya və buna bənzər mövzulardakı liberallıqlarını məhz "radikal solçuluq" kimi yozurlar.

Prezident Tramp miqrantların sayının ildən-ilə çoxaldığını əsas gətirərək onların get-gedə şəhərləri, hətta ştatları belə "işğal etdiyini" önə çəkib. "Həmin insanları bizim ölkəmizə Harris və Bayden gətirib. Onlar bizim ölkəmizi dağıdırlar. Onlar çox təhlükəlidirlər və cinayətkarlıq əməlləri törədirlər. Biz qısa zamanda onları həmin yerlərdən çıxarmalıyıq. Mən birinci prezidentlik dövründə ABŞ-da tarixin ən yüksək iqtisadi göstəricilərinə nail olmuşdur, bu dəfə də nail olacam", - deyən Trampın cavabında Harris iqtisadi məsələlərə toxunub. Vitse-prezident bildirib ki, ilk olaraq Trampın öz xələfinə nələri "miras qoyduğuna" diqqət yetirmək lazımdı. O bildirib ki, Tramp demokratlara ən böyük işsizlər ordusunu və bərbad səhiyyəni miras qoyub getmişdi: "Tramp bizim ölkəmizdə müasir vətəndaş müharibəsi təhlükəsini bizə mçiras qoymuşdu. Biz hər şeyi səhmana saldıq. Bugünki debat keçmiş prezidentin qorxulu 2025 planlarının prezentasiyası da adlana bilər".

Harris respublikaçıya qarşı qaldırılan cinayət işlərini xatırladaraq, rəqibinin "diktator" olmaq istədiyini bildirib. Tramp isə Harrisi ABŞ tarixinin ən pis vitse-prezidenti adlandırıb. Tramp özünə qarşı edilmiş sui-qəsd cəhdində Demokrat Partiyasını günahlandırıb.

Harris Trampın kampaniya mitinqləri zamanı Hannibal Lekter kimi uydurma personajlar haqqında danışdığını iddia edib. Tramp buna cavab olaraq vitse-prezidenti seçki mitinqlərinə adam yığmaq üçün insanlara pul ödədiyini bildirib.

### Müharibə bitəcəkmi? Tramp iddia edir, Harris inanmır...

Debatda əsas diqqətin daxili siyasi gündəliyə yönəlməsinə baxmayaraq, moderatorların bəzi sualları xarici siyasət məsələlərinə, o cümlədən namizədlərin Ukrayna -Rusiya münaqişəsinin həllinə yanaşmalarına həsr olunub. Tramp bir daha söz verib ki, qalib gəlsə, hələ rəsmi vəzifəyə başlamazdan əvvəl döyüşlərə son qoyacaq. "Mən nə edəcəm - hər iki tərəflə danışacağam, onları bir yerə yığacağam. Mən prezident olsaydım, bu müharibə heç vaxt baş verməzdi... Baydenin onunla (Rusiya prezidenti Vladimir Putin ) necə danışacağı, onu necə dayandıracağı barədə heç bir fikri yox idi və indi milyonlarla həyatını itirmiş insanlar var. Vəziyyət getdikcə pisləşir və bu, üçüncü dünya müharibəsinə gətirib çıxara bilər", - deyə respublikaçı namizəd bildirib.

Harris isə bu fikirlərə etiraz edib və bildirib ki, Tramp 2020-ci il seçkilərində qalib gəlsəydi, vəziyyət daha acınacaqlı olacaqdı. Debat zamanı Tramp Harrisin Rusiya və Ukrayna rəhbərliyi ilə döyüş əməliyyatlarının qarşısını almaq üçün danışıqlara göndərildiyini də iddia edib - lakin o, uğursuzluğa düçar olub. Harris Trampın iddialarını yalan adlandırıb.

### Tramp Harrisi nifrətdə günahlandırır...

Namizədlər, həmçinin yaxın və Orta şərqdə cərayan edən hadisələrə, İsrail və HƏMAS arasında bir ilə yaxındır davam edən müharibəyə toxunublar. Harris döyüşlərin dərhal dayandırılmalı olduğunu bildirərək, yeganə yolun atəşkəs razılaşması və girovların azad edilməsi olduğunu qeyd edib. "Biz iki dövlətli həll yoluna doğru bir kurs qurmalı olduğumuzu başa düşərək, bu istiqamətdə gecə-gündüz işləməyə davam edəcəyik. Bu qərar həm İsrail xalqının, həm bütövlükdə İsrailin, həm də fələstinlilərin təhlükəsizliyini nəzərə almalıdır".

Harrisi həmçinin əmin edib ki, o, həmişə İsrailə xüsusən İran və onun müttəfiqlərindən özünü müdafiə etmək imkanı yaradacaq.

Tramp isə Harrisin İsrailə nifrət etdiyini bildirib və rəqibinin prezident seçiləcəyi təqdirdə yəhudi dövlətinin iki il ərzində mövcudluğunu itirəcəyini deyib: "Eyni zamanda, o, regiondakı ərəb əhalisinə nifrət edir. Harris prezident olarsa, orada hər şey partlayacaq - ərəblər, yəhudilər, İsrail. Artıq İsrail olmayacaq".



Qeyd edək ki, müzakirələr Filadelfiyadakı Milli Konstitusiya Mərkəzində baş tutub. Harris üçün hazırkı debat onun prezidentliyə namizəd kimi ilkidir, Tramp üçün isə artıq siyasi karyerasında yeddinci və cari prezidentlik kampaniyası zamanı ikinci debatına çıxıb. Debat təxminən 1 saat 45 dəqiqə davam edib və cəmisi iki dəfə reklam üçün dayandırılıb, bu müddət ərzində namizədlərə seçki qərargahları ilə əlaqə saxlamaq qadağan edilib. Siyasətçilər də əvvəlcədən hazırlanmış qeydləri və rekvizitləri özləri ilə götürə bilməyiblər. Bundan əlavə, rəqiblərin mikrofonların yalnız onlara söz verildikdə açılıb.

Beləliklə, ABŞ-da prezident seçkilərinə səkkiz həftə qalsa da, namizədlərin təşviqat

### Növbəti görüş vitse-prezidentlər arasında baş tutacaq

qərargahı yeni debatların tarixi ilə bağlı razılığa gələ bilməyib. Debat başa çatdıqdan dərhal sonra Harrisin seçki qərargahının nümayəndəsi ikinci tura hazır olduqlarını elan edib. Oktyabrın 1-nə nəzərdə tutulan ikinci tur debatda iki partiyanın vitse-prezidentliyə namizədləri - Minnesota qubernatoru Tim Vals və Ohayo senatoru C.Vens görüşəcək.

***P.İSMAYILOV***

# Fransa şokda...

Tarixi ənənələri olan Fransa dünyəvi dövlətdir. Ancaq burada dinin də cəmiyyətdə böyük nüfuzu var. Bu amilləri nəzərə aldıqda deyə bilərik ki, Fransanın böyük dövlət imicini möhkəmlətmək, xalqın ümumilli ideyalar ətrafında monolitliyini təmin etmək üçün dövlətin və dövlət rəsmilərinin, eləcə də dinin və din xadimlərinin çox ciddi məsuliyyəti yaranır. Ortada elə bir nümunəvi davranış olmalıdır ki, cəmiyyət çaşqınlıq yaşamasın, gələcəyə ümidlə baxsın.

Ancaq bu gün Fransa cəmiyyətinin əhval-ruhiyyəsi optimizmdən çox uzaqdır. Xüsusilə də cərəyan edən son hadisələrin və ayrı-ayrı din xadimlərinin mənəviyyat göstəriciləri ilə bir araya sığmayan əməllərinə dair aşkarlanan faktlar insanlarda dibi görünməyən bir məyusluq yaradıb, ölkə şok içindədir. İki mühüm məqamdan bəhs etmək istərdik.

Birincisi, uzun illər ərzində fransız xalqının inam, rəğbət və bir növ sitayiş yerinə çevrilmiş keşiş abbat Pyerin din və din xadimi adına ləkə olan bağışlanmaz mənəvi və hüquqi cinayət əməllərinin faş olmasından. İkincisi, Makronun iki prezidentliyi dönəmində öz şəxsiyyəti, naqis mənəvi keyfiyyətləri və səriştəsiz idarəçiliyi ilə ölkəsini beynəlxalq aləmdə nüfuzdan salmasından, Yelisey Sarayını oriyentasiyalı nazirlərin klubuna çevirməsindən və beləliklə də Fransa cəmiyyətini dəyərsizləşdirməsindən.

## Sən kim imişsən, keşiş abbat Pyer - din xadimi, yoxsa böyük dələduz?

Əsrlər boyunca dinlər bütün cəmiyyətlərdə ümid, pənah və inam yeri sayılıb. O cümlədən də müasir sivilizasiyaya önəmli töhfələr vermiş Avropada insanlar günah işlədəndə tövbə üçün, həyatın ağır sınaqları qarşısında çarəsiz qalanda kömək üçün kilsələrə gəlib, şamlar yandırıb, ibadət edib, din xadimləri ilə ünsiyyət quraraq onlardan dərdlərinə çarə istəyiblər. İnam o qədər böyük olub ki, bəlkə də, hansısa bir məqamlarda keşişlərin, abbatların adi insan olduqları belə unudulub, onlar bütləşdirilib, Tanrının adından danışmaq hüququ verilənlər kimi davranılıb. İnam, etiqad böyük olanda onun qırılmasından yaşanan mənəvi əzab-əziyyət də dözülməz dərəcədə ağır olur. İnsan övladının məyusluğa və inamsızlığa düçar olması ən böyük dərddir, zənnimizcə. Keşiş abbat Pyer fransız xalqına, dinə inam bəsləyən milyonlarla insana belə acılar yaşadan birisidir.

Keşiş Pyerin dinə və insanlığa zidd olan bəd əməlləri barədə bir qədər sonra söhbət açarıq. Əvvəlcə onun keçdiyi yola nəzər salaq. Beləliklə, keşiş abbat Pyer kimdir? Abbat Pyer (Anri Antuan Qrue) 1912-ci il avqustun 5-də Fransanın Lion şəhərində doğulub. 2007-ci il yanvarın 22-də Parisdə ölüb. 1938-ci ildən katolik kilsəsinin keşişi olub. Fransanın ictimai-siyasi xadimi sayılır. Abbat (lat. "abbas" yəhudi, aramı dilində "abba" sözündən götürülüb, "ata" anlamındadır) beşinci əsrdən başlayaraq yalnız monastır keşişlərinə verilən fəxri katolik kilsə tituludur. Pyer abbat titulunu İkinci Dünya Müharibəsi zamanı alıb. O, Fransanın Müqavimət Hərəkatının iştirakçısı olub, yəhudi qaçqınlara yardım edib. "Emmaus" beynəlxalq xeyriyyə təşkilatının (1949) qurucusudur. Bir sıra orden və medallara layiq görülüb. 2005-ci ildə "France 2" televiziya kanalı tərəfindən keçirilən "Bütün zamanların ən böyük fransızı" sorğusunun nəticələrinə görə, o, Şarl de Qoll və Lui Pasterdən sonra üçüncü yeri tutub.

İlk baxışda, həsəd aparıla biləcək bir tərcümeyi-haldır. Fransa cəmiyyətinin keşiş Pyeri fetişləşdirməsi də məhz buna görədir. Axı xeyirxahlıq hər zaman, hər yerdə təqdir olunur və insanlar bunu minnətdarlıq hissi ilə qarşılayırlar. Ancaq sən demə, keşiş abbat Pyer din və humanizm pərdəsi altında gizlənən bir dələduz imiş. Tərcümeyi-halından da bəlli lduğu kimi, Pyer artıq 17 ildir ki, həyatda yoxdur. Yəqin ki, indiyədək bütün fransızlar onun axirətdə layiq olduğu rahatlığı tapdığını düşünürdülər. Ancaq ölümündən 17 il sonra ilk dəfə bu ilin iyulunda onun əməlləri ifşa olunub ki, bu da Fransa cəmiyyətində heyrətlə qarşılanıb. İndi onun barəsində ən yaxşı halda böyük hiyləgər, fırıldaqçı qənaəti bölüşdürülür. Söhbət ilk növbədə onun mənəviyyat düşgünü olmasından, gizli şəkildə katolik kilsəsinin qadağalarını aşaraq saysız-hesabsız cinsi zorakılıq əməlləri törətməsindən gedir.

Abbat Piyer yeddi qadına qarşı cinsi təcavüz etməkdə günahlandırılır. Məlumatlara əsasən, bu sahədə araşdırmalar ixtisaslaşmış şirkət tərəfindən aparılıb. Bildirilib ki, Pyerin 1950-2000-ci illərdə törətdiyi əməllərə görə Fransa ilə yanaşı, ABŞ, Mərakeş və İsveçrədən olan zərərçəkənlər də ifadə veriblər. Bu iddiaların dərcindən sonra Fransanın ən yüksək yepiskop orqanı faktların aydınlaşdırılması üçün əməkdaşlıq edəcəyini açıqlayıb. Pyerin hərəkət məhdudiyyəti olan insanlarla təkrar cinsi əlaqə, uşaqlara qarşı cinsi təcavüz, seksual xarakterli ifadələr onun əməllərinə dair yeni sübutlardandır. Bu hadisədən sonra Pyer abbat Fondunun adının dəyişdirildiyinə, xatirə kompleksinin bağlandığına dair xəbərlər yayılıb.

Məsələ burasındadır ki, bu gün kilsələrin məhdudiyyətlərini aşan və əxlaqsızlığı, cinsi zorakılığı həyat normasına çevirən din xadimlərinin sayı hədsiz dərəcədə çoxdur. Bir neçə il öncə Argentina Ağır Cinayətlər Məhkəməsi 25 uşağı cinsi istismar edən, ikisi rahib olmaqla, 3 nəfərə ağır cəza verib. Həmçinin Kanadada kilsədə törədilmiş oxşar məzmunlu cinayətlərin üstü açılıb. Həmin hadisəyə etiraz olaraq yerli hindu tayfaların nümayəndələri dörd katolik kilsəsini yandırmışdı. İllər öncə bu ölkədə yerli sakinlərin ailələrinin uşaqları zorla əllərindən alınıb, katolik internat məktəblərinə cəlb olunub. Kilsədə keşişlər həmin uşaqlara qarşı cinsi zorakılıq tətbiq



ediblər. Həmin hadisələrin qurbanı olmuş 215 uşağın məzarı aşkarlanıb. Kanadanın qərbində, Britaniya Kolumbiyası da daxil olmaqla, iki yerdə aborigen uşaqların zorla aparıldığı iki keçmiş məktəbin yerində 966 işarəsiz məzar tapılıb. Eyni zamanda, bu ölkədə 36 keşişin müxtəlif illərdə 29 azyaşlıya təcavüz etməsi faktı qeydə alınıb. Lakin indi demokratiya və insan hüquqlarından danışan Kanada hakmiyyəti baş verənlərə görə üzr istəmək barədə düşünmür. Əvvəllər ABŞ-nin Texas ştatında kilsədə azyaşlı uşaqlara təcavüz etməkdə ittiham olunan 286 rahibin adı açıqlanmışdı. Oxşar hadisələr İtaliya və İrlandiyada da baş verib. Roma Papası baş verənlərə görə üzr istəyib.

Belə faktların sıyahısı çox uzundur. Bu cür iyrənc faktlarla tanış olduqda Avropada kilsələrin əxlaqsızlıq yuvalarına çevrildiyi qənaəti yaranır. Budurmu Avropanın üçüncü ölkələrə, milli dövlətlərə ixrac etmək istədiyi dəyərlər?

## Fransanı yerlə bir edən Makron

Qeyd etdiyimiz kimi, bu gün Fransa cəmiyyətinin şok, sarsıntı içində olmasının digər bir səbəbi Makronun bu ölkənin bəyan etdiyi demokratiya, bərabərlik, qardaşlıq kimi prinsiplərə zidd siyasətidir. Qeyd edək ki, Makronun mənəvi düşgünlüyü, oriyentasiyalı prezident imici qazanması onun keşiş abbat Pyerlə müqayisəsini aparmağa əsas verir. Xatırladaq ki, Makron hökumətində onun təyinatları əsasında bir neçə qeyri-ənənəvi cinsi oriyentasiyalı nazir təmsil olunur. Bu günlərdə Fransada baş tutan 33-cu Yay Olimpiya Oyunlarında yaşananlar yəqin ki, uzun müddət yaddaşlarda kədərli təəssüratlar kimi qalacaq. Prezidentin Olimpiadanın açılış tədbirində naziri ilə dodaq-dodağa öpüşməsi ən liberal toplumlarda belə müzakirələrə səbəb olmaqla birmənalı şəkildə qınanıldı. Bunu heç bir halda dövlət etiketləri ilə bir araya sığışdırmaq mümkün deyil. Olimpiadanın açılış ssenarisində xristian dini baxışlarına və mənəvi dəyərlərə zidd olan səhnələr yer alırdı. Bu səhnələrdə qeyri-ənənəvi cinsi oriyentasiyalar təşviq olunurdu. Təsadüfi deyildir ki, elə Avropanın özündə çoxsaylı xristian



icmaları bu və digər səhnələri kəskin şəkildə tənqid etdilər, bunu xristianlığa ləkə, təhqir kimi dəyərləndirdilər. Şübhəsiz ki, belə iyrənc səhnələrin dünyanı bir araya gətirən Olimpiadanın açılış ssenarisinə salınmasının sifarişi elə Makronun özündən gəlib. O daşıyıcısı olduğu naqis dəyərləri bütün dünyaya aşılamaq istəyir. Bu yerdə bəhs olunan səhnələrlə bağlı edilən üzürxahlığın da heç bir əhəmiyyəti qalmır...

Bütün dinlər kimi, xristianlıq da bərabərliyi, dözümlülüyü təlqin edir. Makronun siyasəti isə dinin bu çağırışını da heçə endirir. Parisdə fəaliyyət göstərən İnsan hüquqları komitəsinin hesabatına görə, 2023-cü ildə Fransada irqçilik halları 32 faiz artıb. Fransanın İnsan Hüquqları üzrə Milli Məşvərət Komitəsinin (CNCDH) yaydığı yeni hesabatda deyilir ki, bu ölkədə azlıqda olan bütün qruplar üçün tolerantlığın, xüsusən də yəhudi icması üçün dözümlülüyün səviyyəsi azalıb. Ən az tolerantlıq göstərilən qrup isə müsəlman icmasıdır.

Fransa Daxili İşlər Nazirliyi də 2023-cü ildə irqçilik hallarının 32 faiz artmasını təsdiq edib. Hesabatda qeyd olunub ki, ən çox artım antisemit irqçiliyi zəminində müşahidə olunub. CNCDH, habelə 2023-cü ildə 1 milyon insanın ən azı bir irqçi hücuma məruz qaldığını qeyd edərək, oktyabrın 7-dən İsrailin Qəzza zolağına hücumları fonunda sığınacaq və miqrasiya ilə bağlı qütbləşən müzakirələr də daxil olmaqla, vəziyyətin gərginliyini artıran amilləri təqdim edib.

Hesabatda diqqətə çatdırılır ki, artıq fransızların yarıdan çoxu - 51 faizi Fransada özünü evindəki kimi hiss etmir. Bu göstəricidə də 2022-ci ilin yazına nisbətən səkkiz pilləlik artım var. Bildirilib ki, fransızların 56 faizi hesab edir ki, ölkədə miqrantların sayı həddindən artıqdır.

Rəqəmlər bu ilin iyununda Avropa Parlamentinə keçirilən seçkilərdə səslərin 30 faizindən çoxunu toplayan ifrat sağçı "Milli birlik" (RN) partiyasının yüksəlişi ilə bağlı siyasi və sosial atmosferin son kontekstini əks etdirir. Ultrasağçı qüvvələrin qələbəsi Makronu mərkəzçi blokunun məğlubiyyətini etiraf etməyə, parlamenti buraxmağa və növbədənkənar seçkilər elan etməyə sövq edib. Makronun qurduğu "İntibah" partiyası həmçinin Milli Assambleyaya keçirilən seçkilərin hər iki mərhələsində məğlubiyyətlə üzləşdi.

Bütün bunlar Makronun siyasətinin acı meyvələridir. Bu gün Fransanın daxilində çox ciddi təbəddülatlar müşahidə edilir. Ölkədə iqtisadi böhran yaşanır, xarici borc ifrat dərəcədə artır və sosial vəziyyət getdikcə dözülməz hala gəlir. Ölkədə Makronun hakimiyyətə gəlişindən sonra yeni bir inqilab əhval-ruhiyyəsi baş qaldırıb. Artıq sarı jiletlilər hərəkatı bu inqilabın simvaluna çevrilib. Fransanın əyalətlərində fermerlərin başladığı "peyin inqilabı" isə pis nümunə kimi qonşu ölkələrə də sirayət edib.

Eyni zamanda, Fransanın xarici siyasəti də rəvan getmir. Xüsusilə də Makronun müstəmləkəçilik siyasətini daha da sərtləşdirməsi Afrikada, dənizaşırı ərazilərdə azadlıq mübarizəsinin əhatə dairəsinin genişlənməsi ilə nəticələnib. Getdikcə daha çox müstəmləkə ölkəsində "Rədd ol, Makron" şüarları səsləndirilir, Fransanın rəmzləri təhqirlərə məruz qalır.

Belə yarıtmaz daxili və xarici siyasət fonunda Makronun impiçment məsələsi gündəmə gəlib. Ona açıq-aşkar Yelisey Sarayının qapıları göstərilir. Makronun özü istefa verməyəcəyini bildirsə də, parlamentin son seçkilər nəticəsində formalaşan tərkibi prezidentin impiçmentini hüquqi müstəvidə həyata keçirməyə imkan yaradır...

***Mübariz FEYİZLİ***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




## Üzeyir Hacıbəyli XVI Beynəlxalq Musiqi Festivalı keçiriləcək




Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Milli Musiqi Günü münasibətilə sentyabrın 18-dən 28-dək Üzeyir Hacıbəyli XVI Beynəlxalq Musiqi Festivalı keçiriləcək.

Nazirlikdən “Yeniazerbaycan.com”-a bildirilib ki, festivalda Azərbaycanla yanaşı, ABŞ, Rusiya, Almaniya, İspaniya, Avstriya, Koreya, Türkiyə, Braziliya, Hindistan və digər ölkələrdən tanınmış ifaçı və kollektivlər iştirak edəcəklər.

Festival çərçivəsində Bakı ilə yanaşı, Şuşa, Gəncə və bir sıra şəhərlərdə açıq və qapalı məkanlarda konsertlər, tamaşalar, sərgilər, elmi konfrans və ustad dərsləri təqdim olunacaq.

Festival günlərində M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin təqdimatında “Mədəniyyətimiz naxışların izi ilə” adlı sərgi reallaşacaq.

Sentyabrın 18-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında Üzeyir Hacıbəyli XVI Beynəlxalq Musiqi Festivalının təntənəli açılış mərasimi olacaq.

Tədbirdə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri (bədii rəhbər və baş dirijor: Əməkdar artist Fuad İbrahimov) və Azərbaycan Dövlət Xor Kapellası (bədii rəhbər və baş dirijor: Xalq artisti Gülbacı İmanova) çıxış edəcək. Solistlər Xalq artisti Ülviyyə Hacıbəyova (piano), Əməkdar artistlər Ramil Qasımov (tenor), İnarə Babayeva (soprano) və beynəlxalq müsabiqələr laureatı Mahir Tağızadə (bariton) ifalarını təqdim edəcəklər.

Həmçinin bütün ölkə üzrə Heydər Əliyev mərkəzləri və kinoteatrlarda Üzeyir Hacıbəylinin əsərləri əsasında lentə alınmış bədii filmlərin nümayişi, xarici ölkələrdə fəaliyyət göstərən mədəniyyət mərkəzlərində müxtəlif tədbirlərin təşkili nəzərdə tutulur.

## Laçına növbəti köç...

Laçına növbəti köç prosesi gerçəkləşib, səhər saatlarında yola salınan ailələr doğma yurdlarına çatıblar.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Laçın şəhəri bu dəfə 18 ailəyə qucaq açıb, daha 59 laçınlının yurd həsrəti bitib.

Laçına qədəm qoyan ailələr sevinc göz yaşları ilə doğma yurdlarına qovuşublar. Onlar böyük coşqu ilə qarşılanıblar və Laçının gözəl mənzərəsini seyr ediblər.

Doğma yurda qayıdan Laçın sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Bununla da, Laçın şəhərində 570 ailə, yəni 2090 nəfərin daimi məskunlaşması təmin edilib.

Qeyd edək ki, köçürülən ailələrin Laçın şəhərində dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb.



## İstifadəçi çoxaldıqca...

### Ekspert: Bizim əsas üstünlüyümüz gənc insanlarımızın Avropaya nisbətdə daha çox olmasıdır

Dünyada və ölkəmizdə İT sahəsində çalışanların maaşlarının digər bəzi sahələrlə müqayisədə qənaətbəxş olması, insanların bu sahəyə olan marağını artırır. Bu gün İT imkanlarından istifadə etməyən sahə və insan demək olar ki, yox səviyyəsindədir. Hər bir sahədə İT avadanlıqlardan istifadə edilir və bu, gün keçdikcə çoxalır.

İnformasiya Texnologiyaları üzrə mühəndis-tədqiqatçı, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) eksperti Bəhruz Əliyev “Yeni Azərbaycan” - a açıqlamasında bildirir ki, istifadəçilər çoxaldıqca, bu sahəyə xidmət göstərən işçilərə də tələbatın artması təbii prosesdir: “Hal-hazırda yaranan vəziyyətin bum effekti olduğunu düşünürəm. Bazarımızın bu tələbə necə cavab verdiyini araşdırmağa ehtiyac var. Eyni zamanda, bum effekti bazarda zamanla İT işçilərinin orta maaşının aşağı düşməsinə səbəb ola bilər. Əksi o zaman mümkün ola bilər ki, qurumlar öz işlərini görmək üçün daha çox İT imkanlardan faydalansınlar və İT layihələrin də, artımında da bum effekti yaransın”.



Mütəxəssis bildirir ki, eyni zamanda, universitetlərimizin bazara çıxardığı kadr potensialının da tələblərə cavab verməsi əhəmiyyətlidir. Onun sözlərinə görə, Universitetlərin də inkişaf üçün cəhd etdikləri ni keçirilən tədbirlərdən müşahidə etmək olar: “Aydındır ki, informasiya texnologiyaları bizə Avropa və ABŞ-dan gəlmişdir. Amma təbii ki, bəzi Yaponiya, Cənubu Koreya, son dövrlərdə Çin kimi şərq ölkələrini də unutmaq olmaz”.

B.Əliyevin sözlərinə görə Qərbdə ortaya çıxan texnologiyalar, Azərbaycana gəlməkdə gecikmir: “Bizim ölkə olaraq, əsas üstünlyümüz və zənginliyimiz gənc insanlarımızın Avropaya nisbətdə daha çox olmasıdır. Bu zənginlik bizim bu sahəni təqib etmək və inkişaf etdirmək üçün, əsas amillərdən biridir. Amma Qərb ilə rəqib olmaq hələlik çətindir. İT avadanlıqların istehsalı və İT məhsullarımızın dünya bazarına çıxararaq, rəqabətliliyi təmin etmək lazımdır. O zaman bizim İT sferamız dünyada da öz sözünü deyəcəkdir”.

*Havar Şəfiyeva*

## Allah rəhmət eləsin!

YAP Təftiş Komissiyasının üzvü Musa Musayev və “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Alqış Həsənoğlu Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin rəisi Ramiz Zeynalova qardaşı

**TOFİQ ZEYNALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər




## Azercell-in “Həyatı daha dolğun edirik: qadınlara dəstək proqramı” çərçivəsində sosial layihə qəbulu davam edir

Lider mobil operator sosial layihə müsabiqəsinin müraciət tarixini uzadır

Azercell qadınların ictimai həyatda fəallığının artırılmasına töhfə vermək məqsədilə həyata keçirdiyi sosial layihə müsabiqəsinin müraciət tarixini uzadır. Qeyri-hökumət və qeyri-kommersiya təşkilatları layihə təkliflərini 24.09.2024-cü il tarixinədək qeyd olunmuş link üzərindən göndərə bilər.

Müsabiqə çərçivəsində iki qalib layihə seçiləcək və hər birinin həyata keçirilməsi üçün 5.000 AZN qrant ayrılacaq.*

Xatırladaq ki, müsabiqənin məqsədi qadınların cəmiyyətdə mövqeyinin yaxşılaşdırılmasına, həmçinin maddi-mənəvi rifahının artırılmasına dəstək olmaqdır.

Müsabiqəyə təqdim olunan layihələr aşağıdakı mövzulardan birini əhatə etməlidir:

* Müxtəlif istiqamətlər üzrə qadınların bilik və bacarıqlarının təkmilləşdirilməsi;

* Qadınlara sahibkarlıq və biznes fəaliyyətinə dair praktiki biliklərin aşılanması;

* Texnoloji və innovativ sahədə qadınlarda yeni bacarıqların formalaşdırılması;

* Qadınların hüquq və maliyyə savadlılığının artırılması;

* Qadınlar arasında sağlam həyat tərzinin təbliğ edilməsi.

Ətraflı məlumat üçün: Azercell “Həyatı daha dolğun edirik: qadınlara dəstək proqramı”na start verir!

Qeyd edək ki, layihə təklifi Azərbaycan dilində göndərilməlidir. Müraciətə layihənin həyata keçirilməsi üçün tələb olunan büdcənin detallı açıqlamasının əlavə edilməsi xahiş olunur.

“Azercell Telekom” MMC bütün iştirakçılara uğurlar arzu edir!

* Qrantın məbləği münsiflər heyətinin layihə dəyərləndirməsindən asılı olaraq müəyyənləşdirilmiş məbləğdən yuxarı və ya aşağı ola bilər.

## İdman

### Azərbaycan Dünya Köçəri Oyunlarında dördüncü medalını qazanıb

Azərbaycanın daha bir idmançısı Qazaxıstanın Astana şəhərində keçirilən V Dünya Köçəri Oyunlarında fəxri kürsüyə qalxıb.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, buna alış yarışında Şəhanə Alməmmədova (75 kiloqram) nail olub. İdmançı bürünc medala yiyələnib.




Daha əvvəl qazaq güləşi yarışlarında Eyvaz Baxşıyev (65 kiloqram) gümüş, Elşən Dünyamalıyev (55 kiloqram) və Ülviyyə Bayramova (52 kiloqram) isə bürünc mükafata sahib çıxıblar.

Qeyd edək ki, sentyabrın 13-dək davam edəcək yarışlarda Azərbaycan 8 növ üzrə 54 idmançı ilə təmsil olunur.

### Ağırlıqqaldırma üzrə Azərbaycan çempionatı keçiriləcək

Sentyabrın 14-15-də gənclər arasında Azərbaycan birinciliyi və böyüklər arasında ağırlıqqaldırma üzrə Azərbaycan çempionatı keçiriləcək.

GƏNCLƏR VƏ BÖYÜKLƏR ARASINDA AZƏRBAYCAN ÇEMPİONATI 14-15 sentyabr 2024-cü il

Azərbaycan Ağırlıqqaldırma Federasiyasından (AAF) AZƏRTAC-a verilən məlumata görə, Şüvəlan qəsəbəsində yerləşən Ağırlıqqaldırma Mərkəzinin baş tutacaq yarışda ölkənin bütün bölgələrindən 100-ə yaxın atlet qüvvəsini sınayacaq.

Gənclər və İdman Nazirliyi və AAF-ın birgə təşkil etdiyi çempionatın məqsədi ağırlıqqaldırma idman növünün şəhər, rayon, qəsəbə və kəndlərdə təbliği və inkişafına dəstək verilməsi, idmançıların ustalıq səviyyəsinin artırılması və təkmilləşdirilməsi, texniki cəhətdən hazırlıqlı və dərəcə normalarını yerinə yetirən idmançıların seçilməsi, yığma komandaların tərkibinin müəyyənləşdirilməsi, qarşıdakı beynəlxalq yarışlara hazırlanmasıdır.

### “Formula 1”: Azərbaycan Qran-prisinin proqramı dəqiqləşib

Bakıda keçiriləcək “Formula 1” və “Formula 2” üzrə Azərbaycan Qran-prisinin proqramı dəqiqləşib.

“Report”un məlumatına görə, ilk olaraq ikinci dərəcəli pilotlar mübarizəyə qoşulacaqlar.

13 sentyabr



11:00. “Formula 2”: Sərbəst yürüş
13:30. “Formula 1”: Birinci sərbəst yürüş
15:00. “Formula 2”: Sıralama turu
17:00. “Formula 1”: İkinci sərbəst yürüş

14 sentyabr

12:30. “Formula 1”: Üçüncü sərbəst yürüş
14:15. “Formula 2”: Sprint yarışı
16:00. “Formula 1”: Sıralama turu

15 sentyabr

11:35. “Formula 2”: Əsas yarış
15:00. “Formula 1”: Əsas yarış




## Azercell-dən Litres və Busuu tətbiqlərindən pulsuz istifadə imkanı

Lider mobil operator “Məktəbə qayıdış” adlı kampaniyasını təqdim edir

“Azercell Telekom” MMC yeni tədris ili ərəfəsində mütaliə və xarici dillərə marağı olan abunəçilər üçün “Məktəbə qayıdış” kampaniyasını elan edir.

10.09.2024-cü il tarixindən etibarən “Litres” elektron kitabxanası və “Busuu” məşhur dil öyrənmə tətbiqinə yeni qoşulan Azercell abunəçiləri 30 gün müddətində hər iki proqramdan pulsuz istifadə imkanı əldə edəcək. Kampaniya 30 sentyabr tarixinədək keçərlidir.

Xatırladaq ki, “Litres” böyük nəşriyyatlarla rəsmi əməkdaşlıq çərçivəsində unikal və zəngin çeşid təqdim edən rəqəmsal kitab platformasıdır. Bu tətbiq vasitəsilə məkandan və cihazdan asılı olmayaraq, hətta oflayn rejimdə belə kitabları həm oxumaq, həm də dinləmək mümkündür. Tətbiqə türk, ingilis, rus, alman, fransız və digər dillərdə 200000 e-, 50000 audiokitab daxildir. Qeyd edək ki, “Litres” Azərbaycan dilində 2700-dən çox müxtəlif mövzularda və janrlarda kitabları istifadəçilərə əlçatan edir. Elektron kitabxananın təqdim etdiyi geniş imkanlardan faydalanmaq istəyənlər *301#YES kodunu yığaraq “Standart” e-kitab tarifinə qoşula bilərlər.

Dünyanın top 10 dil öyrənmə platformaları sırasında olan “Busuu” proqramı vasitəsilə isə real vaxt rejimində xarici dillərə yiyələnmək mümkündür. Azercell-in “Busuu+Premium” abunəliyi ilə istifadəçilər “Tədris Planı”, “Biznes və Səyahət” kursları, “Söz ehtiyatı” məşqləri və “Video dərslərdən” yararlana bilərlər. Abunə olmaq üçün *969#YES kodunu yığmaq kifayətdir.

Kampaniya barədə ətraflı məlumat üçün Məktəbə qayıdış səhifəsinə keçid etməyiniz xahiş olunur.

Qeyd edək ki, hər iki xidmətə Azercell-in rəsmi saytı, “Azercell” tətbiqi və ya sms üzərindən də qoşulmaq olar.

“Azercell Telekom” MMC bütün məktəbliləri yeni tədris ili münasibətilə təbrik edir, onlara zehin açıqlığı və bol müvəffəqiyyətlər arzulayır!


Təsisçi: Yeni Azərbaycan Partiyası
Baş redaktor: Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar: 598-37-76, 498-82-21, 498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4934
Sifariş: 2090
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi: Yeganə Bayramova